RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 142 (10162) 11 avqust 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## Donald Tramp sülh prosesində Prezident İlham Əliyevin rolunu yüksək qiymətləndirib



Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında telefon danışığı olub.

Telefon söhbəti zamanı Vaşinqton Zirvə görüşünün ildönümü münasibətilə məmnunluq ifadə olunub, Vaşinqton sülh zirvəsi və ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin və Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulması ilə bağlı sazişin paraflanmasının regionda münaqişəyə son qoyduğu və sülhü təsbit etdiyi vurğulanıb.

Dövlətimizin başçısı Vaşinqton sülh Zirvə görüşünə evsahibliyi etməsinə və sülh gündəliyinə verdiyi töhfələrə görə Donald Trampa minnətdarlığını bildirib.

Donald Tramp sülh prosesində Prezident İlham Əliyevin rolunu yüksək qiymətləndirib.

Ötən bir il ərzində regionda sülh və sabitliyin təmin olunduğu, bölgədə sülhə xələl gətirə biləcək insidentin olmadığı məmnunluqla vurğulanıb.

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana daşınması, iki ölkə arasında ticarət əlaqələrinin başlanması müsbət hallar kimi qeyd edilib.

Telefon danışığı əsnasında TRIPP layihəsinin regional bağlantılar baxımından əhəmiyyəti vurğulanıb, Azərbaycan ərazisində nəqliyyat infrastrukturu işlərinin başa çatmaq mərhələsində olduğu bildirilib.

Ermənistan ərazisində TRIPP layihəsi üzrə işlərin tezliklə başlanacağına ümidvarlıq ifadə olunub.

Dövlət başçıları həmçinin ikitərəfli gündəliyə aid məsələləri müzakirə ediblər.

Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığa dair sənədin imzalanması tarixi hadisə kimi qiymətləndirilib, Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni yüksək səviyyəyə qalxdığı, strateji mahiyyət daşıdığı vurğulanıb və bunun da geniş bir bölgədə sülhə, sabitliyə töhfə verdiyi qeyd olunub.

Dövlətimizin başçısı G20-yə dəvətə görə ABŞ Prezidentinə təşəkkür edib. Bu, ölkəmizə olan xoş münasibətin təzahürü kimi qiymətləndirilib.

Telefon danışığı zamanı Azərbaycan-ABŞ strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan-ABŞ əlaqələrinin bugünkü səviyyəsi 34 illik diplomatik münasibətlərinin tarixində ən yüksək zirvədə qərarlaşmışdır

### Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının evsahibliyi ilə 2025-ci ilin 8 avqust tarixində Azərbaycan ilə Ermənistan arasında sülhün təməlini qoyan tarixi Vaşinqton Zirvə görüşündən bir il ötür.

Bir il əvvəl Siz öz üzərinizə məsul tarixi missiyanı götürərək Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində dönüş nöqtəsi yaratdınız. Qətiyyətiniz və sarsılmaz iradəniz sayəsində Siz üç onillik ərzində davam edən münaqişənin tamamilə sona çatmasına, xalqlarımız üçün barışığın və qarşılıqlı tərəfdaşlıq dövrünün əsasını qoymağa nail oldunuz.

Ağ Evdə Sizin şahidliyiniz ilə imzaladığımız üçtərəfli Birgə Bəyannamə, Azərbaycan ilə Ermənistan arasında paraflanan sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı qəbul edilən birgə müraciət regionda davamlı sülhün və sabitliyin təmin olunmasında həlledici rol oynadı, gələcək dayanıqlı inkişaf və qarşılıqlı əməkdaşlıq üçün parlaq səhifə açdı. Eyni zamanda sülh quruculuğu səylərinizin mühüm nəticələrindən biri də - TRIPP layihəsi Cənubi Qafqazda çoxtərəfli iqtisadi əməkdaşlığın, nəqliyyat bağlantılarının inkişafı və təhlükəsizliyin təminatı baxımından böyük əhəmiyyət kəsb edir. Regionun sülh gündəliyinin təşviqi ilə əlaqədar nümayiş etdirdiyiniz güclü liderliyinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu gün Azərbaycan cəmiyyəti artıq bölgədə formalaşmış yeni reallıqda və sülh mühitində yaşamağa uyğunlaşır. Ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin inkişafı baxımından vacib işlər görüldü. Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətlər aradan qaldırıldı, Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən isə taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac olunmağa başladı. Biz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur, onu daha da möhkəmləndirmək və əməli fəaliyyətə çevirmək, qarşılıqlı etimad mühitini formalaşdırmaq üçün səylərimizi davam etdiririk.

Hörmətli cənab Prezident!

Keçən ilin avqustunda Vaşinqtonda baş tutan görüş Azərbaycan-ABŞ ikitərəfli əlaqələri baxımından da mühüm tarixi əhəmiyyətə malikdir. Məhz həmin görüşün nəticəsində dövlətlərarası münasibətlərimiz keyfiyyətcə yeni strateji tərəfdaşlıq mərhələsinə qədəm qoydu. 6 ay sonra vitse-prezident Cey. Di. Vensin Azərbaycana səfəri və səfər zamanı qarşılıqlı sərmayə, ticarət, enerji, bağlantılar, nəqliyyat, süni intellekt, təhlükəsizlik sahələrini əhatə edən Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması, habelə son bir il ərzində reallaşmış ali və yüksəksəviyyəli təmaslar və əldə olunmuş razılaşmalar qısa zaman kəsiyində qət etdiyimiz uğurlu yolun və Sizin Azərbaycan-ABŞ əlaqələrinin inkişafına verdiyiniz önəmin göstəricisidir.

Eyni zamanda "Azadlığı Müdafiə Aktı"na ayrı-seçkilik səciyyəli 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə Sizin qərarınızı tarixi ədalətin bərpası istiqamətində önəmli addım olaraq qiymətləndiririk.

Fəxrlə deyə bilərik ki, Azərbaycan-ABŞ əlaqələrinin bugünkü səviyyəsi 34 illik diplomatik münasibətlərinin tarixində ən yüksək zirvədə qərarlaşmışdır. Bu böyük nailiyyətə, o cümlədən strateji tərəfdaşlığımızın təşəkkülündə və dərinləşməsində əvəzsiz xidmətlərinizə görə Sizə şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha təşəkkürümü ifadə edirəm.

Biz bundan sonra da Azərbaycan ilə ABŞ arasında dostluğa, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan əlaqələri və strateji tərəfdaşlığı genişləndirmək və yeni məzmunla zənginləşdirmək əzmindəyik. Bu istiqamətdə Sizinlə birgə çalışmağı səbirsizliklə gözləyirik.

Sizə dərin hörmət və ehtiramlarımı izhar edir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Amerika xalqının əmin-amanlığı, rifahı və firavanlığı naminə şərəfli və məsul fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Nikol Paşinyan Prezident İlham Əliyevə zəng edib





Avqustun 8-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı zamanı tərəflər ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş və Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olmasını təmin etmiş Sülh Sammitinin birinci ildönümü, habelə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülh Sazişinin mətninin ilkin paraflanması münasibətilə fikir mübadiləsi aparıblar.

Tərəflər sülh prosesinin irəlilədilməsində Prezident Donald Trampın və Amerika Birləşmiş Ştatları Hökumətinin oynadığı mühüm rolu xüsusi vurğulayıblar.

Tərəflər ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd ediblər.

Söhbət zamanı iki ölkə arasında iqtisadi və ticari əlaqələrin inkişafının sülhün faydalarının konkret təzahürü olduğu vurğulanıb. Bu kontekstdə tərəflər Azərbaycanın neft məhsullarının Ermənistana ixracını, habelə tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana və Ermənistandan digər istiqamətlərə daşınmasını qeyd ediblər.

Bundan əlavə, tərəflər Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq TRIPP marşrutunun icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər sülh prosesinin irəlilədilməsi və regionda davamlı sülhün, sabitliyin, o cümlədən bağlantıların və iqtisadi əməkdaşlığın təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş sözlərə görə İran Prezidentinə təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan haqqında söylədiyi xoş və səmimi sözlərə görə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin "X" səhifəsində paylaşım edilib.

Paylaşımda deyilir: "Cənab Prezident Məsud Pezeşkian, Azərbaycan haqqında söylədiyiniz xoş və səmimi sözlərə görə Sizə təşəkkür edirəm. Azərbaycan və İran xalqları dar və çətin günlərdə hər zaman bir-birinin yanında olublar. Bölgəmizdə baş vermiş son hadisələr fonunda Azərbaycanın qardaş İran xalqının yanında olduğu bir daha özünü göstərdi".

## Litva Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişafına daim dəstək verir





Avqustun 10-da Litva Respublikasının Baş naziri Mindaugas Sinkeviçyus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı son dövrlərdə Azərbaycan ilə Litva arasında əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika məmnunluqla qeyd edilib. Bu xüsusda, Litva Respublikasının sabiq Baş naziri İnqa Ruqinienenin bu ilin aprelində ölkəmizə səfəri və Prezident İlham Əliyevlə apardığı müzakirələr xatırlanıb.

Dövlətimizin başçısı Mindaugas Sinkeviçyusu baş nazir vəzifəsinə seçilməsi münasibətilə təbrik edib.

Mindaugas Sinkeviçyus təbriklərə görə təşəkkürünü ifadə edərək, baş nazir kimi ikitərəfli əlaqələrimizin inkişafını daim diqqətdə saxlayacağını bildirib.

Telefon danışığı əsnasında Azərbaycan ilə Litva arasında enerji sahəsində əməkdaşlıq, xüsusilə enerji təhlükəsizliyinin təmin olunması, ticarət dövriyyəsinin artırılması məsələləri müzakirə olunub.

Litvanın Baş naziri Vaşinqton Sülh Sammiti və orada əldə olunmuş razılaşmaların ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri müzakirə olunub, son dövrlərdə həyata keçirilmiş yüksəksəviyyəli təmasların əməkdaşlığın inkişafına əsaslı töhfə verdiyi qeyd edilib. Litvanın Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişafına daim dəstək verdiyi vurğulanıb.

Azərbaycan Prezidenti və Litvanın Baş naziri, həmçinin beynəlxalq arenada mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 20-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364 (Cild I); 2024, № 1, maddə 18, № 7, maddə 769; 2025, № 7, maddə 626; 2026, № 1, maddə 17; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. birinci hissəyə "mühafizəsi" sözündən sonra ", informasiya təhlükəsizliyi, o cümlədən kibertəhlükəsizliyin təmini" sözləri əlavə edilsin;

1.2. ikinci hissəyə "Qanun" sözündən sonra "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında"," sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu Qanundan irəli gələrək aparılan icraat "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu, dövlət sirri və kommersiya sirri təşkil edən məlumatların, maliyyə bazarlarını tənzimləyən qanunlarla qorunan məlumatların, habelə fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini təmin edən informasiya infrastrukturunun kibertəhlükəsizliyi ilə bağlı münasibətlər "Dövlət sirri haqqında", "Kommersiya sirri haqqında", "Fərdi məlumatlar haqqında" və maliyyə bazarlarını tənzimləyən Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

2. 2-ci maddənin birinci hissəsi üzrə:

2.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:";

2.2. otuz dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda otuz beşinci - əlli üçüncü abzaslar əlavə edilsin:

**"informasiya infrastrukturu** - informasiya-telekommunikasiya şəbəkələrinin, internet informasiya ehtiyatlarının, informasiya ehtiyatlarının və sistemlərinin, o cümlədən avtomatlaşdırılmış idarəetmə sistemlərinin məcmusu;

**informasiya infrastrukturu subyekti** - informasiya infrastrukturunun obyekti üzərində sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirən yerli özünüidarəetmə orqanı, fiziki və ya hüquqi şəxs, habelə sahibliyinə informasiya infrastrukturu obyekti verilmiş dövlət orqanı (qurumu);

**informasiya infrastrukturu obyekti** - informasiya infrastrukturunun tərkib hissəsi olan və ya ayrılıqda informasiya infrastrukturu ola bilən informasiya-telekommunikasiya şəbəkələri, informasiya ehtiyatları və sistemləri, o cümlədən avtomatlaşdırılmış idarəetmə sistemləri;

**ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturu**-kritik informasiya infrastrukturu, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin informasiya infrastrukturu istisna olmaqla, ölkə və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən sahələrdə fəaliyyəti, o cümlədən xidmətlərin göstərilməsini təmin edən, funksional fəaliyyətinin pozulması və ya əlçatanlığının məhdudlaşması ölkənin siyasi, sosial və iqtisadi dayanıqlılığınaciddi zərər vuran informasiya infrastrukturu;

**kibertəhlükəsizlik** - informasiya infrastrukturunun kibertəhdidlərdən, kiberhücumlardan və kiberinsidentlərdən mühafizə edilməsi və kiberdayanıqlılığının (kiberinsidentlərə qarşı davamlılıq, həmin insidentlər zamanı fəaliyyətin saxlanılması və sonradan operativ bərpası qabiliyyəti) təmin edilməsi;

**proaktiv kibertəhlükəsizlik tədqiqatı** - kibertəhdidlər, onların mənbəyi, törədilmə vasitələri və üsulları barədə məlumatların toplanması və təhlili;

**kompüter insidentlərinə qarşı mübarizə mərkəzi (bundan sonra - CERT)** -informasiya infrastrukturunun kibertəhlükəsizliyinin pozulması hallarının, hadisələrinin və faktlarının aşkarlanması, səbəblərinin araşdırılması, habelə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirən ixtisaslaşmış qurum və ya struktur;

**Milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzi (bundan sonra - Milli CERT)** - ölkə üzrə kibertəhlükəsizlik sahəsində məlumat mübadiləsini, informasiya infrastrukturu subyektlərinin (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri, mühafizə olunan şəxslər, qorunan və strateji obyektlər istisna olmaqla) və CERT-lərin fəaliyyətinin (kritik informasiya infrastrukturuna münasibətdə səlahiyyətli orqan vasitəsilə), dövlət orqanlarına (qurumlarına), habelə Azərbaycan Respublikasının Mərkəzi Bankına və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərə (bank, sığortaçı, təkrarsığortaçı, qiymətli kağızlar bazarında lisenziyaladırılan şəxslər, səhmdar investisiya fondu və investisiya fondunun idarəçisi, ödəniş xidmət təchizatçıları və s.) məxsus informasiya infrastrukturlarına, eləcə də onlarla bağlı aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış CERT-lər üzrə digər fəaliyyət istiqamətləri istisna olmaqla, yalnız kiber-təhdid, kiberhücum və kiberinsident üzrə məlumat mübadiləsi (kritik informasiya infrastrukturuna münasibətdə səlahiyyətli orqan vasitəsilə) koordinasiyasını, o cümlədən kibertəhlükəsizliyin pozulması hallarının, hadisələrinin və faktlarının aşkarlanmasını, səbəblərinin araşdırılmasını (dövlət orqanlarında (qurumlarında) (mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturu istisna olmaqla) informasiya infrastrukturuna kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin səbəblərinin Dövlət CERT-i ilə birgə araşdırılması), habelə kibertəhdidlər üzrə qabaqlayıcı tədbirlərin həyata keçirilməsini təmin edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**Dövlət kompüter insidentlərinə qarşı mübarizə mərkəzi (bundan sonra - Dövlət CERT/GOV CERT)** - kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin, Azərbaycan Respublikası Mərkəzi Bankının informasiya infrastrukturu istisna olmaqla, sahəvi CERT olaraq dövlət orqanlarının (qurumlarının) fəaliyyətini təmin edən informasiya infrastrukturlarının (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə səlahiyyətli orqanla birlikdə), o cümlədən ali kateqoriya dövlət orqanlarının, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturunun kibertəhlükəsizlik sahəsində məlumat mübadiləsini, o cümlədən kiber təhlükəsizliyinin pozulması hallarının, hadisələrinin və faktlarının aşkarlanması, səbəblərinin araşdırılması (mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturu istisna olmaqla, kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin səbəblərinin Milli CERT-lə birlikdə araşdırılması), qarşısının alınması üçün kibertəhdidlər üzrə öz səlahiyyətləri çərçivəsində qabaqlayıcı tədbirlərin həyata keçirilməsini, eləcə də onların təhlükəsiz internet şəbəkəsi ilə təmin edilməsini və fasiləsiz qaydada Təhlükəsizlik əməliyyatları mərkəzi vasitəsilə təhlükəsizliyinin təmin edilməsini, kibertəhdid, kiberhücum və kiberinsidentlə bağlı Milli CERT-lə qarşılıqlı məlumat mübadiləsini (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə səlahiyyətli orqan vasitəsilə) həyata keçirən, Milli CERT-dən daxil olmuş məlumatlar əsasında insidentlərin fəsadlarının aradan qaldırılmasını, proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması və "gov.az" domen zonasına bənzədilmiş saxta domenlərin aşkarlanması üzrə monitorinqi həyata keçirən, sahə üzrə məlumat mübadiləsində iştirak edənmüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**kiberməkan** - bilavasitə və ya dolayısı ilə informasiya-telekommunikasiya şəbəkələrinə, habelə elektron rabitə və ya kompüter şəbəkələrinə qoşulmuş informasiya infrastrukturu obyektlərindən ibarət rəqəmsal mühit;

**kibergigiyena** - informasiya infrastrukturlarının və istifadəçilərin kibertəhlükəsizliyini təmin etmək, riskləri azaltmaq, kiberhücumların və kibertəhdidlərin qarşısını almaq məqsədilə dövlət hakimiyyəti və yerli özünü idarə etmə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlar, həmçinin fiziki şəxslər tərəfindən müntəzəm tətbiq edilməli olan davranış qaydalarının, texniki və təşkilati tədbirlərin məcmusu;

**rəqəmsal dəlil** - kiberinsidentlər üzrə hüquqi əhəmiyyət kəsb edən hadisələrlə bağlı halların və faktların müəyyən edilməsi üçün istifadə olunan, rəqəmsal texnologiyalar vasitəsilə yaradılan, emal edilən və ya saxlanılan, bütövlüyü və etibarlılığı təmin edilməklə əldə edilən və ilkin texniki ekspertiza tələb edən məlumatlar və ya məlumat daşıyıcıları;

**rəqəmsal inkişaf** - rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi yolu ilə dövlət idarəçiliyinin, iqtisadi fəaliyyətin və xidmətlərin səmərəliliyinin, əlçatanlığının və keyfiyyətinin artırılmasına, habelə məlumatlara əsaslanan qərarvermənin, rəqəmsal bacarıqların və innovasiya ekosisteminin inkişafına yönəlmiş sistemli və davamlı fəaliyyətin məcmusu;

**rəqəmsal tədqiqat** - informasiya infrastrukturunda baş vermiş kiberinsidentlərin araşdırılması, rəqəmsal dəlillərin müəyyən edilməsi məqsədilə həyata keçirilən, informasiya infrastrukturu obyektlərində məlumatların identifikasiyası, toplanılması, surətinin çıxarılması, qorunub-saxlanılması, bütövlüyünün təmin edilməsi, texniki təhlili və nəticələrin sənədləşdirilməsi proseslərinin məcmusu;

**Rəqəmsal tədqiqat mərkəzi** - rəqəmsal tədqiqat fəaliyyətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının (qurumunun) müəyyən etdiyi orqan (qurum);

**Təhlükəsizlik əməliyyatları mərkəzi (bundan sonra - SOC)** - informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin edilməsi məqsədilə kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin real vaxt rejimində monitorinqini, aşkarlanmasını, eyniləşdirilmiş təhlilini və ilkin texniki cavab tədbirlərini həyata keçirən, ixtisaslaşmış işçi heyətinə, texnoloji vasitələrə və təhlükəsizlik prosedurlarına malik olan qurum və ya struktur;

**Milli təhlükəsizlik əməliyyatları mərkəzi (bundan sonra - Milli SOC)** - ölkə üzrə fəaliyyət göstərən SOC-lardan və digər mənbələrdən daxil olan məlumatların (mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturu istisna olmaqla) toplanmasını və təhlilini təmin edən, qarşılıqlı məlumat mübadiləsindən irəli gələrək topladığı və təhlil etdiyi həmin məlumatlar əsasında kibertəhlükəsizlik vəziyyətinin mərkəzləşdirilmiş qaydada monitorinqini aparan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**rəqəmsal həll** - fəaliyyətin şəffaflığının, effektivliyinin, səmərəliliyinin artırılması, həmçinin göstərilən xidmətlərinin keyfiyyətinin və istifadəçi məmnunluğunun yüksəldilməsi məqsədilə tətbiq edilən proqram təminatı və texnoloji avadanlıqların məcmusu;

**tənzimləyici test mühiti** - rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsinin məhdud çərçivədə (ərazi, müddət, əməliyyatların sayı, həcmi, iştirakçıların və istifadəçilərin sayı (dairəsi) ilə bağlı və ya digər məhdudiyyətlər) və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tənzimləməsi ilə həyata keçirilməsinə imkan verən alət.".

3. 3-cü maddənin birinci hissəsinin səkkizinci abzasına "təhlükəsizliyin" sözündən sonra ", habelə informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin" sözləri əlavə edilsin.

4. 14-cü maddəyə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

"Dövlət informasiya ehtiyatları və sistemlərinin (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə məxsus informasiya ehtiyatları və sistemləri, eləcə də kritik informasiya infrastrukturu, Azərbaycan Respublikası Mərkəzi Bankının və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərin (dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin) informasiya infrastrukturu istisna olmaqla) təhlükəsizlik meyarları üzrə monitorinqinin və auditinin aparılması, habelə informasiya təhlükəsizliyi üzrə rəy verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

5. aşağıdakı məzmunda 14-3-cü, 14-4-cü maddələr və V-II fəsil əlavə edilsin:

**"Maddə 14-3. Rəqəmsal inkişaf üzrə layihələrin maliyyələşdirilməsi**

14-3.1. Ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri, eləcə də Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla, dövlət orqanları (qurumları) tərəfindən hər növbəti il ərzində həyata keçirilməsi nəzərdə tutulan rəqəmsal inkişaf üzrə layihələrə dair təkliflər, tələb olunan maliyyə vəsaitinin məbləği və maliyyələşdirmə mənbəyi qeyd edilməklə, cari il yanvarın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin təkliflərə 2 ay müddətində baxaraq texniki və səmərəlilik baxımından məqsədəuyğunluq haqqında rəyini aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edir.

14-3.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət investisiyası çərçivəsində həyata keçirilən rəqəmsal inkişaf üzrə layihələrə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyini alır. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) rəy alınması üçün müraciətə 14 iş günü müddətində baxmalı və cavablandırmalıdır. Bu müddət ərzində müraciət cavablandırılmadıqda, rəy müsbət hesab olunur.

14-3.3. Dövlət proqramlarında, strategiyalarda, milli fəaliyyət planlarında, konsepsiyalarda və bu kimi digər sənədlərdə nəzərdə tutulan strateji hədəflərə və məqsədlərə, ölkənin rəqəmsal inkişaf üzrə vahid arxitekturasına uyğun olmayan, dövlət investisiyası çərçivəsində maliyyələşdirilməsi nəzərdə tutulmayan, habelə təkrar (dublikat) layihələrə müsbət rəy verilmir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) özünün və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müsbət rəy verdiyi layihələrə dair sənədləri həmin rəylə birlikdə cari il aprelin 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

14-3.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 14-3.3-cü maddəsində qeyd edilən sənədləri aldığı vaxtdan 2 ay müddətində maliyyə ekspertizasını apararaq rəyini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edir.

14-3.5. Bu Qanunun 14-3.1-ci, 14-3.2-ci və 14-3.4-cü maddələrində qeyd edilən rəylər müsbət olduqda aidiyyəti dövlət orqanı (qurumu) rəqəmsal inkişaf üzrə layihələrin maliyyələşdirilməsi üzrə təkliflərini "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq cari il iyulun 1-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

14-3.6. Bu Qanunun 14-3.5-ci maddəsində nəzərdə tutulan layihələrin maliyyələşdirilməsi üçün vəsaitin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aidiyyəti dövlət qurumuna hər bir layihə üzrə ayrılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla həyata keçirilir.

14-3.7. Rəqəmsal inkişaf üzrə layihələrin maliyyələşdirilməsi üzrə dövlət qurumları tərəfindən təkliflərin, eləcə də həmin təkliflərə dair bu Qanunun 14-3.1-ci, 14-3.2-ci və 14-3.4-cü maddələrində qeyd edilən rəylərin verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən həyata keçirilir.

**Maddə 14-4. Tənzimləyici test mühiti**

14-4.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) rəqəmsal həllərin tətbiq olunacağı sahə üzrə tənzimləmə və nəzarət funksiyalarını həyata keçirən aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə fiziki və hüquqi şəxslərin (dövlətə məxsus olan kommersiya hüquqi şəxslər və publik hüquqi şəxslər istisna olmaqla) müraciəti əsasında onlar tərəfindən tətbiqi (istifadəsi) təklif olunan rəqəmsal həllərin (o cümlədən süni intellekt texnologiyalarının) sınaqdan keçirilməsi məqsədilə tənzimləyici test mühitini tətbiq edir.

14-4.2. Tənzimləyici test mühitinin həyata keçirilməsi qaydaları, o cümlədən onda iştirak edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi, tənzimləyici test mühitinin maksimum müddəti və normativ hüquqi aktların tələblərindən istisnaların tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

14-4.3. Bu Qanunun maddələri maliyyə bazarlarında rəqəmsal həllərin (o cümlədən süni intellekt texnologiyalarının) sınaqdan keçirilməsinə şamil edilmir. Maliyyə bazarlarında rəqəmsal həllərin (o cümlədən süni intellekt texnologiyalarının) sınaqdan keçirilməsi "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 50-ci maddəsinə uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankının nəzarəti altında həyata keçirilən tənzimləyici test mühiti üzrə sınaqlarda iştirak edən subyektlərin sayına və sınaqların nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet informasiya ehtiyatındakı müvafiq reyestrdə əks olunan açıq məlumatları altı ayda bir dəfə - yanvar və iyul aylarının10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.";

**"V-II fəsil**
**İnformasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi**

**Maddə 20-7. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyinin təmin edilməsi**

20-7.1. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturlarında kibertəhlükəsizlik üzrə fəaliyyət həmin infrastrukturun mövcud olduğu sahə üzrə dövlət siyasətini, tənzimləməsini və nəzarətini həyata keçirən dövlət orqanının (qurumunun) müvafiq strukturu və ya həmin orqan (qurum) tərəfindən müqavilə əsasında müəyyən edilən rezident hüquqi şəxs olan CERT-lər vasitəsilə təmin edilir.

20-7.2. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturu obyektinə qarşı yönəlmiş kibertəhdid və kiberhücumların, həmçinin baş vermiş kiberinsidentlərin real vaxt rejimində fasiləsiz monitorinqi və onlara qarşı ilkin texniki cavab tədbirlərinin görülməsi SOC-lar tərəfindən həyata keçirilir.

20-7.3. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturu subyektlərinin siyahısı (dövlət orqanlarına (qurumlarına) məxsus, informasiya infrastrukturu Dövlət CERT-i istisna olmaqla) həmin infrastrukturun mövcud olduğu sahə üzrə dövlət siyasətini, tənzimləməsini və nəzarətini həyata keçirən dövlət orqanı (qurumu) tərəfindən müəyyən edilərək Milli CERT-ə təqdim edilir.

20-7.4. CERT-lər tərəfindən mütəmadi olaraq, lakin ildə bir dəfədən az olmayaraq ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturlarının siyahısı nəzərdən keçirilməli və həmin siyahının yenilənməsi təmin edilməlidir. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturlarının yenilənmiş siyahısı bu Qanunun 20-7.3-cü maddəsində nəzərdə tutulan dövlət orqanı (qurumu) tərəfindən yeniləndiyi tarixdən 10 iş günü ərzində Milli CERT-ə təqdim edilməlidir.

20-7.5. İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə ümumi tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), xüsusi tələblər isə həmin infrastrukturun mövcud olduğu sahə üzrə dövlət siyasətini, tənzimləməsini və nəzarətini həyata keçirən dövlət orqanı (qurumu) tərəfindən (bu maddənin ikinci cümləsinin tələbi nəzərə alınmaqla, dövlət orqanlarının (qurumlarının) infrastrukturuna münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla) müəyyən edilir. Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə ümumi və xüsusi tələblər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.

20-7.6. Hər bir informasiya infrastrukturu subyekti tərəfindən CERT və ya SOC struktur bölmə kimi yaradıla və ya müqavilə əsasında rezident hüquqi şəxslər müəyyən edilə bilər.

20-7.7. Milli CERT və Dövlət CERT-i arasında kibertəhdid, kiberhücum və kiberinsidentlər üzrə qarşılıqlı məlumat (mühafizə olunan şəxslər, qorunan və strateji obyektlərin informasiya infrastrukturuna dair məlumatlar istisna olmaqla) mübadiləsi Milli CERT və Dövlət CERT-i tərəfindən birgə müəyyən edilmiş formada həyata keçirilir.

20-7.8. Bu Qanunun V-II fəslinin yalnız 20-8.2-ci maddəsinin üçüncü cümləsi, 20-9.3-cü, 20-10.1-ci və 20-10.6-cı maddələrinin tələbləri kritik informasiya infrastrukturu obyektlərinə, dövlət orqanlarına (qurumlarına) məxsus, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturuna, onlarla bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı CERT-lərə və SOC-lara şamil edilir.

20-7.9. Dövlət orqanlarında (qurumlarında) (mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturu istisna olmaqla) kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin səbəblərinin araşdırılması Dövlət CERT-i tərəfindən Milli CERT-lə birgə həyata keçirilir. Dövlət orqanları (qurumları) tərəfindən yaradılan (müqavilə əsasında müəyyən edilən) CERT-lər Milli CERT-lə yanaşı, Dövlət CERT-i ilə də məlumat mübadiləsi aparırlar.

20-7.10. Dövlət CERT-inin fəaliyyəti, hüquqları və vəzifələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi əsasnamə ilə tənzimlənir. Dövlət orqanlarına (qurumlarına) məxsus (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri istisna olmaqla), habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyinin təmin edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

20-7.11. Reyestrin aparılmasına və sorğuların verilməsinə münasibətdə bu Qanunun 20-8.4 - 20-8.16-cı və 20-9.1.2-ci maddələrinin tələbləri kritik informasiya infrastrukturu üzrə CERT-lərə, Dövlət CERT-inə və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış CERT-ə və həmin CERT-lər üzrə SOC-lara, habelə maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlər tərəfindən yaradılan SOC-lara şamil edilmir.

20-7.12. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılan CERT-lərə və SOC-lara, habelə maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə yaradılan SOC-lara münasibətdə bu Qanunun V-II fəslinin yalnız 20-8.2-ci maddəsinin üçüncü cümləsi, 20-9.3-cü, 20-10.1-ci və 20-10.6-cı maddələri, eləcə də maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərin domen adı "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında olan internet informasiya ehtiyatlarının monitorinqi və auditi üzrə 20-10-4.7-ci və 20-10.5-ci maddələr şamil edilir.

20-7.13. Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərin informasiya infrastrukturlarında kibertəhlükəsizlik üzrə fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təmin edilir. Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlər tərəfindən SOC-ların yaradılmasının və fəaliyyətinin tənzimlənməsi, monitorinqi və bu fəaliyyətə nəzarət edilməsi Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilir.

**Maddə 20-8. CERT-lərin və SOC-ların fəaliyyətinin təşkili**

20-8.1. CERT-lər və SOC-lar tərəfindən göstərilən xidmətlərin dairəsi bu Qanunun tələbləri nəzərə alınmaqla, onların əsasnaməsi (nizamnaməsi) və ya bu Qanunun 20-7.1-ci və 20-7.6-cı maddələrində qeyd edilən müqavilə ilə müəyyən olunur.

20-8.2. Qurumlar müvafiq CERT-i və SOC-u yaratdıqdan və ya müəyyən etdikdən sonra 10 (on) iş günü ərzində onların reyestrə daxil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada müraciət etməlidir. CERT-lər və SOC-lar reyestrə daxil edilmədən fəaliyyət göstərə bilməzlər. Bu Qanunun 20-7.8-ci və 20-7.12-ci maddələrində nəzərdə tutulan CERT-lər və SOC-laronların elektron müraciəti əsasında hər hansı bir icraat aparılmadan reyestrə daxil edilmiş hesab olunurlar.

20-8.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən CERT-lərin və SOC-ların reyestri elektron formada aparılır.

20-8.4 CERT-lər reyestrə daxil edilməsi üçün aşağıdakı minimal tələblərə cavab verməlidir:

20-8.4.1. işçi heyəti kibertəhlükəsizlik sahəsində ixtisasa və peşə hazırlığına malik olmalı;

20-8.4.2. kiberinsidentlərin və kiberhücumların real vaxt rejimində fasiləsiz monitorinqi və onlara qarşı operativ cavab tədbirlərinin həyata keçirilməsi üçün SOC-a, həmçinin kiberhücumların və kibertəhdidlərin aşkarlanması, aidiyyəti qurumlarla koordinasiya fəaliyyətinin, kiberinsidentlərə yol aça biləcək halların erkən mərhələdə müəyyən edilməsinin təmin edilməsi üzrə texnoloji infrastruktura malik olmalı;

20-8.4.3. kiberinsidentlərin qeydiyyatı və identifikasiyası, onların prioritetləşdirilməsi və təsnifatı, cavab tədbirlərinin planlaşdırılması və icrasının izlənilməsi, həyata keçirilən fəaliyyətin sənədləşdirilməsi, hesabatlılığın və statistik məlumatların formalaşdırılması, habelə Milli CERT tərəfindən müəyyən edilmiş sistemlərə inteqrasiya funksiyalarına malik mərkəzləşdirilmiş insident idarəetmə sistemi və insident idarəetmə təlimatı mövcud olmalı;

20-8.4.4. kibertəhdidlərin aşkarlanmasını təmin edən proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması, bu fəaliyyət çərçivəsində zərərli fəaliyyət göstəricilərinin toplanması və təhlili, milli və beynəlxalq mənbələrdən məlumatların əldə edilməsi və emalı, potensial təhdidlər üzrə erkən xəbərdarlıq mexanizmlərinin tətbiqi və əldə edilmiş məlumatların aidiyyəti üzrə paylaşılması üçün texniki infrastruktura malik olmalı;

20-8.4.5. kibertəhlükəsizlik, məlumat mübadiləsi və məlumatların mühafizəsi üzrə siyasət sənədlərinə malik olmalı.

20-8.5. SOC-lar reyestrə daxil edilməsi üçün aşağıdakı minimal tələblərə cavab verməlidir:

20-8.5.1. kiberinsidentlərin və kiberhücumların real vaxt rejimində fasiləsiz monitorinqinin və onlara qarşı ilkin texniki cavab tədbirlərinin həyata keçirilməsi, eləcə də belə fəaliyyətlər nəticəsində əldə edilən məlumatların dərhal Milli SOC-a ötürülməsi üçün texniki infrastruktura malik olmalı;

20-8.5.2. işçi heyəti kibertəhlükəsizlik sahəsində ixtisasa və peşə hazırlığına malik olmalı;

20-8.5.3. fasiləsiz monitorinq zamanı fasiləsiz rejimində fəaliyyət göstərməli, fəaliyyət göstərdiyi sahə üzrə informasiya ehtiyatlarından və sistemlərindən məlumatların (loqların) toplanması, sistemləşdirilməsi və real vaxt rejimində təhlili üçün zəruri texniki və proqram təminatına malik olmalı;

20-8.5.4. kiberinsidentlərin qeydiyyatı və identifikasiyası, onların prioritetləşdirilməsi və təsnifatı, cavab tədbirlərinin planlaşdırılması və icrasının izlənilməsi, həyata keçirilən fəaliyyətin sənədləşdirilməsi, hesabatlılığın və statistik məlumatların formalaşdırılması, habelə Milli CERT tərəfindən müəyyən edilmiş sistemlərə inteqrasiya funksiyalarına malik mərkəzləşdirilmiş insident idarəetmə sistemi və insident idarəetmə təlimatı mövcud olmalı;

20-8.5.5. kibertəhlükəsizlik, məlumat mübadiləsi və məlumatların mühafizəsi üzrə siyasət sənədlərinə malik olmalı.

20-8.6. Bu Qanunun 20-8.2-ci maddəsində qeyd edilən müraciətə aşağıdakı sənədlər və məlumatlar əlavə edilməlidir:

20-8.6.1. CERT-in və ya SOC-un hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti (rezident hüquqi şəxs olduqda);

20-8.6.2. CERT-in və ya SOC-un əsasnaməsinin və ya nizamnaməsinin surəti;

20-8.6.3. CERT-in və ya SOC-un infrastrukturunun yerləşdiyi ünvan və əlaqə məlumatları (telefon nömrəsi, elektron poçt);

20-8.6.4. CERT-in və ya SOC-un kibertəhlükəsizlik, məlumat mübadiləsi və məlumatların mühafizəsi üzrə siyasət sənədləri, habelə insident idarəetmə təlimatı;

20-8.6.5. CERT-in və ya SOC-un işçilərinin kibertəhlükəsizlik sahəsində peşə hazırlığına və ixtisasa malik olduğunu təsdiq edən sənədlərin surəti (təhsil haqqında sənəd və ya beynəlxalq səviyyədə tanınan sertifikat);

20-8.6.6. texniki-texnoloji infrastrukturu barədə məlumatlar.

20-8.7. Bu Qanunun 20-8.6-cı maddəsinə əsasən tələb olunan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar qurumdan tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi qurumun razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya qurum tərəfindən təmin edilir.

20-8.8. Qurumun bu Qanunun 20-8.6-cı maddəsinə uyğun təqdim etdiyi sənədlər və məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 15 (on beş) iş günü müddətində yoxlanılır. Həmin sənədlərdə və məlumatlarda aradan qaldırılması mümkün olan çatışmazlıqlar (bu Qanunun 20-8.7-ci maddəsinin tələbi nəzərə alınmaqla) aşkar edildikdə, müraciətin qeydiyyata alındığı tarixdən 20 (iyirmi) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat quruma təqdim edilir, habelə formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Bütün çatışmazlıqlar quruma eyni zamanda bildirilməlidir.

20-8.9. Qurum həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 20iş günü müddətində aradan qaldırmalıdır.

20-8.10. Qurum müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları bu Qanunun 20-8.9-cu maddəsində nəzərdə tutulmuş müddətdə aradan qaldırmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciəti baxılmamış saxlayır və bu barədə qərarı 5 iş günü müddətində onlara təqdim edir.

20-8.11. Müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkar edilmədikdə və ya aşkar olunmuş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən CERT və ya SOC barədə məlumatlar 10 iş günü müddətində reyestrə daxil edilir vəbu barədə məlumat 2 iş günü müddətində aidiyyəti quruma təqdim edilir.

20-8.12. Reyestrə daxil edilən məlumatlarda dəyişikliklər baş verdikdə və ya CERT və SOC ləğv edildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) 5 iş günü müddətində elektron qaydada məlumat verilir. Məlumat daxil olduqdan sonra 5 iş günündən gec olmayaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən reyestrdə müvafiq dəyişikliklər edilir (ləğv edilən CERT-əvə ya SOC-a dair məlumatlar reyestrdə arxivləşdirilir).

20-8.13. CERT-lərin və SOC-ların fəaliyyətinin bu Qanunun 20-8.4-cü və 20-8.5-ci maddələrində qeyd edilən tələblərə uyğunluğunun yoxlanılması məqsədilə Milli CERT tərəfindən ildə bir dəfədən az olmayaraq monitorinqlər həyata keçirilir. Monitorinqlər CERT və ya SOC-un fəaliyyət göstərdiyi yerlərə getməklə və ya getmədən (hesabatlar, sorğular və digər məlumatlar əsasında) aparılır. Monitorinqin keçirilməsinə ən geci 5 iş günü qalanadək aidiyyəti CERT-ə və ya SOC-a bu barədə məlumat verilir. Monitorinq nəticəsində aşkar edilən çatışmazlıqlar Milli CERT tərəfindən müəyyən edilən müddətlərdə aradan qaldırılmalıdır.

20-8.14. Bu Qanunun 20-8.4-cü və 20-8.5-ci maddələrində qeyd edilən tələblərə sahibkarlıq subyekti olan CERT və ya SOC tərəfindən riayət olunmasının monitorinqi həmin sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi obyektlərə gəlmədən aparılır. Milli CERT-invə Milli SOC mütəxəssisləri informasiya infrastrukturunun kibertəhlükəsizliyi ilə bağlı metodiki köməklik göstərilməsi, məsləhət verilməsi və vəziyyətin qiymətləndirilməsi üçün həmin CERT-in və ya SOC-un dəvəti ilə onun informasiya infrastrukturu obyektlərinə gələ bilərlər.

20-8.15. CERT-lərin və SOC-ların işçi heyəti fəaliyyəti zamanı informasiya infrastrukturu subyekti, onun texnoloji infrastrukturu, informasiya ehtiyatları və onlarda olan informasiya barədə əldə olunmuş məlumatların konfidensiallığını təmin etməlidir.

20-8.16. CERT və SOC-un işçi heyəti kibertəhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması üçün davamlı təlimlərə cəlb edilməli, eləcə də onların bilik və bacarıqlarının artırılması, habelə sertifikatlaşdırılması təmin edilməlidir.

20-8.17. Milli SOC tərəfindən aparılan monitorinq kritik informasiya infrastrukturuna, dövlət orqanlarına (qurumlarına) məxsus, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturuna, Azərbaycan Respublikasının Mərkəzi Bankına və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərə, eləcə də aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış SOC-ların fəaliyyətinə şamil olunmur. Kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə fəaliyyət göstərən SOC-ların Milli SOC-la əlaqələndirilməsi və məlumat mübadiləsi kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi üzrə səlahiyyətli orqan, maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə SOC-ların Milli SOC-la əlaqələndirilməsi və məlumat mübadiləsi Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilir.

**Maddə 20-9. CERT-lərin vəzifələri və hüquqları**

20-9.1. CERT-lərin (Dövlət CERT-i istisna olmaqla) vəzifələri aşağıdakılardır:

20-9.1.1. fəaliyyət göstərdiyi sahə üzrəinformasiya infrastrukturuna qarşı yönəlmiş kibertəhdidləri, kiberhücumları və kiberinsidentləri vaxtında aşkarlamaq, onların qeydiyyatını və risklərin qiymətləndirilməsini aparmaq, ilkin araşdırmaq və təhlil etmək, qarşısını almaq;

20-9.1.2. fəaliyyət göstərdiyi sahə üzrə Milli CERT tərəfindən informasiya infrastrukturunun kibertəhlükəsizlik vəziyyətinin öyrənilməsivə proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması ilə bağlı göndərilmiş sorğuları 24 saat, rəqəmsal tədqiqatın aparılması ilə bağlı sorğuları isə 5 iş günü ərzində cavablandırmaq və tələb olunan məlumatları təqdim etmək;

20-9.1.3. ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturu obyektlərinin sahə üzrə fəaliyyət göstərən SOC-a inteqrasiyasını təmin etmək;

20-9.1.4. fəaliyyət göstərdiyi sahə üzrə informasiya infrastrukturu obyektlərində kibertəhlükəsizlik vəziyyətinin SOC vasitəsilə fasiləsiz monitorinqini və ilkin texniki cavab tədbirlərini həyata keçirmək;

20-9.1.5. fəaliyyət göstərdiyi sahə üzrə informasiya infrastrukturu subyektlərini kibertəhdidlər, kiberhücumlar, kiberinsidentlər və kibertəhlükəsizlik riskləri, habelə onların təhlilinin nəticələri barədə operativ məlumatlandırmaq;

20-9.1.6. kiberinsidentlərin idarə olunması və aradan qaldırılması üzrə operativ tədbirlər görmək, kiberinsidentlərin lokallaşdırılması və təsirlərinin minimuma endirilməsi üçün müvafiq texniki və təşkilati tədbirlər görmək;

*Ardı 3-cü səh.*

# "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

20-9.1.7. fəaliyyət göstərdiyi sahə üzrə informasiya infrastrukturu subyektləri ilə kibertəhdidlərə, kiberhücumlara və kiberinsidentlərə qarşı operativ koordinasiyanı təmin etmək;

20-9.1.8. kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər barədə məlumatları dərhal Milli CERT-ə ötürmək, eləcə də onların statistik uçotunu aparmaq, analitik hesabatlar hazırlamaq və rüblük əsasla Milli CERT-ə təqdim etmək;

20-9.1.9. kibertəhlükəsizlik sahəsində risklərin azaldılması və kibertəhlükəsizliyin təmin edilməsi məqsədilə sahə üzrə informasiya infrastrukturu subyektlərinə tövsiyələr vermək, habelə metodiki və təşkilati dəstək göstərmək;

20-9.1.10. kibertəhlükəsizlik üzrə məlumat mübadiləsini və erkən xəbərdarlıq mexanizmlərini təşkil etmək;

20-9.1.11. kibergigiyenanın təmin edilməsi istiqamətində mütəmadi tədbirlər görmək, sahə üzrə informasiya infrastrukturu subyektlərinin kibertəhlükəsizlik üzrə hazırlıq səviyyəsinin artırılması məqsədilə təlimlər, simulyasiya məşqləri və maarifləndirici tədbirlər təşkil etmək;

20-9.1.12. kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər barədə məlumatları bir ildən az olmayan müddətdə, araşdırmaların nəticəsinə dair məlumatları isə üç ildən az olmayan müddətdə saxlamaq;

20-9.1.13. kibertəhlükəsizlik risklərinin qiymətləndirilməsi və zəifliklərin müəyyən olunması məqsədilə informasiya infrastrukturu obyektlərinin ildə bir dəfədən az olmayaraq kibertəhlükəsizlik auditlərinin keçirilməsi ilə bağlı tədbirlər görmək;

20-9.1.14. sahə üzrə informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə bu Qanunun 20-7.5-ci maddəsi ilə müəyyən edilmiş ümumi və xüsusi tələbləri pozmuş şəxslərin məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət etmək;

20-9.1.15. bu Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

20-9.2. CERT-lərin (Dövlət CERT-i istisna olmaqla) bu Qanunla müəyyən olunmuş vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:

20-9.2.1. fəaliyyət göstərdiyi sahə üzrə informasiya infrastrukturu obyektlərinin təhlükəsizliyində boşluqların, zəifliklərin və digər uyğunsuzluqların müəyyən edilməsi məqsədilə təsdiq edilmiş illik və ya cari planlar üzrə müdaxilə sınaqlarını və digər texniki təhlükəsizlik testlərini həyata keçirmək;

20-9.2.2. kibertəhlükəsizlik sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı Milli CERT-ə təkliflər vermək;

20-9.2.3. fəaliyyət göstərdiyi sahə üzrə informasiya infrastrukturu obyektlərinin kibertəhlükəsizlik vəziyyəti ilə bağlı məlumat və texniki göstəricilərin təqdim edilməsini informasiya infrastrukturu subyektlərindən tələb etmək;

20-9.2.4. kiberhücumların, kiberinsidentlərin və kibertəhdidlərin araşdırılması və qarşısının alınması məqsədilə sahə üzrə informasiya infrastrukturu subyektləri ilə birgə texniki tədbirlər həyata keçirmək;

20-9.2.5. digər sahələr üzrə fəaliyyət göstərən CERT-lərvə Milli CERT-i məlumatlandırmaqla beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və məlumat mübadiləsi aparmaq;

20-9.2.6. fəaliyyət istiqamətləri üzrə yerli və beynəlxalq təcrübəni öyrənmək və uyğun təcrübənin tətbiqi ilə bağlı tədbirlər görmək, o cümlədən Milli CERT-ə təkliflər vermək;

20-9.2.7. kibertəhlükəsizlik üzrə yeni texnologiyaların və həllərin tətbiqi ilə bağlı pilot layihələr həyata keçirmək;

20-9.2.8. bu Qanun və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

20-9.3. Bu Qanunun 20-7.8-ci və 20-7.12-ci maddələrində nəzərdə tutulan CERT-lər Milli CERT-lə yalnız qarşılıqlı məlumat mübadiləsi (kritik informasiya infrastrukturuna münasibətdə səlahiyyətli orqan vasitəsilə) həyata keçirilər. Bu zaman məlumat mübadiləsi Milli CERT-in həmin CERT-lərlə birgə müəyyən etdiyi formada aparılır.

20-9.4. Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə yaradılan CERT-lərin və SOC-ların fəaliyyətinin təşkili və Milli CERT-lə əlaqələndirilməsi Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilir.

**Maddə 20-10. İnformasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi üzrə fəaliyyətinin təşkili**

20-10.1. İnformasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətin koordinasiyası (kritik informasiya infrastrukturu, dövlət orqanlarına (qurumlarına) məxsus, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturu, Azərbaycan Respublikasının Mərkəzi Bankı və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlər, eləcə də onlarla bağlı aidiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış CERT-lərlə bağlıyalnız kibertəhdid, kiberhücum və kiberinsidentlər üzrə məlumat mübadiləsi) Milli CERT tərəfindən həyata keçirilir. Milli CERT kritik informasiya infrastrukturu obyektlərinin kibertəhlükəsizliyinə münasibətdə məlumat mübadiləsini səlahiyyətli orqan vasitəsilə keçirir.

20-10.2. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə məxsus olan informasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi həmin orqanlar tərəfindən təmin edilir. Bu orqanların informasiya infrastrukturunun informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyinə qarşı mövcud və yarana biləcək kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər,onların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə görülən tədbirlər barədə məlumatlar açıqlanmır və digər dövlət orqanları (qurumları), o cümlədən Milli CERT-lə və Milli SOC-la mübadilə edilmir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə məxsus olan informasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyinin təmin edilməsi qaydaları həmin orqanların normativ hüquqi aktları ilə müəyyən edilir.

20-10.3. Milli CERT-in vəzifələri aşağıdakılardır:

20-10.3.1. ölkə üzrə kibertəhlükəsizlik vəziyyətinin mütəmadi monitorinqini aparmaq, kibertəhdidlər, kiberhücumlar, kiberinsidentlər və zərərverici proqram təminatı barədə məlumatları toplamaq, mübadilə etmək, sistemləşdirmək və təhlil etmək, habelə həmin məlumatların potensial təsirlərini qiymətləndirmək, məlumat mübadiləsi həyata keçirmək;

20-10.3.2. ölkəninkibertəhlükəsizliyinə yönələn kibertəhdidlərə, kiberhücumlara və kiberinsidentlərə qarşı əlaqələndirilmiş tədbirlərin görülməsini təşkil etmək;

20-10.3.3. proaktiv kibertəhlükəsizlik tədqiqatını həyata keçirmək və erkən xəbərdarlıq mexanizmlərini təşkil etmək;

20-10.3.4. kibertəhlükəsizliyin təmini üzrə CERT-lərə və informasiya infrastrukturu subyektlərinə metodiki və təşkilati köməklik göstərmək;

20-10.3.5. CERT-lərdən, digər ölkələrin analoji qurumlarından və digər mənbələrdən daxil olan məlumatlar əsasında kibertəhdidlərin qabaqlanması, qarşısının alınması və zərərli kiberinsidentlərə reaksiya üzrə koordinasiyalı fəaliyyəti təşkil etmək və zəruri texniki dəstək göstərmək;

20-10.3.6. kibertəhdidlər, kiberhücumlar, kiberinsidentlər və zərərverici proqram təminatı barədə informasiya infrastrukturu subyektlərini və CERT-ləri operativ məlumatlandırmaq, müvafiq tövsiyələr vermək;

20-10.3.7. kibertəhlükəsizliyin təmin edilməsi məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə standartlar, metodiki sənədlər və təlimatlar hazırlamaq, habelə onların tətbiqi ilə bağlı tədbirlər görmək;

20-10.3.8. xarici mənbəli kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər barədə xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilatlarla məlumat mübadiləsi həyata keçirmək;

20-10.3.9. kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin vahid qeydiyyatını və statistik uçotunu aparmaq, analitik hesabatlar hazırlamaq;

20-10.3.10. kibertəhlükəsizlik sahəsində təlimlərin, simulyasiya məşqlərinin və sınaqların keçirilməsini təşkil etmək və əlaqələndirmək;

20-10.3.11. informasiya infrastrukturu subyektləri və CERT-lər tərəfindən kibertəhlükəsizlik sahəsində beynəlxalq standartların və ən yaxşı təcrübələrin tətbiqinə dəstək göstərmək;

20-10.3.12. kibertəhlükəsizlik sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

20-10.3.13. dövlət orqanları (qurumları), informasiya infrastrukturu subyektləri və CERT-lər arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlığı və qarşılıqlı məlumat mübadiləsini təşkil etmək.

20-10.4. Milli CERT bu Qanunla müəyyən olunmuş vəzifələrini yerinə yetirmək məqsədilə aşağıdakı hüquqlara malikdir:

20-10.4.1. informasiya infrastrukturu subyektlərindən kibertəhlükəsizlik vəziyyəti, kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər, habelə təhlükəsizlik riskləri barədə məlumatları bu Qanunun 1-ci maddəsininüçüncü hissəsinin, 20-7.8-ci, 20-7.12-ci, 20-9.3-cü, 20-9.4-cü və 20-10.6-cı maddələrinin tələbləri nəzərə alınmaqla əldə etmək;

20-10.4.2. kiberinsidentlərin araşdırılması və aradan qaldırılması məqsədilə CERT-lərin, informasiya infrastrukturu subyektlərinin fəaliyyətini bu Qanunun 20-7.8-ci, 20-7.12-ci, 20-9.3-cü, 20-9.4-cü və 20-10.6-cı maddələrinin tələbləri nəzərə alınmaqla əlaqələndirmək;

20-10.4.3. kibertəhlükəsizlik sahəsində dövlət orqanları (qurumları) və digər aidiyyəti qurumlarla birgə tədbirlər həyata keçirmək;

20-10.4.4. beynəlxalq təşkilatlar və xarici ölkələrin CERT strukturları ilə əməkdaşlıq etmək, təcrübə və məlumat mübadiləsi aparmaq;

20-10.4.5. kibertəhlükəsizliyin təmin edilməsi (kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması) ilə əlaqədar informasiya infrastrukturu subyektlərinə, CERT-lərə, SOC-lara, internet provayderlərə və hostprovaydelərə-göstərişlər vermək;

20-10.4.6. kibertəhlükəsizlik sahəsində yeni texnologiyaların və həllərin tətbiqi üzrə pilot layihələr həyata keçirmək;

20-10.4.7. kibertəhlükəsizlik risklərinin qiymətləndirilməsi və zəifliklərin müəyyən olunması məqsədilə informasiya infrastrukturu subyektini məlumatlandırmaqla informasiya infrastrukturu obyektlərinin, o cümlədən internet informasiya ehtiyatlarının kibertəhlükəsizlik üzrə monitorinqini vəauditini həyata keçirmək.

20-10.5. Həyata keçirilmiş monitorinqlər və auditlər nəticəsində aşkar edilmiş zəifliklərin, boşluqların və digər uyğunsuzluqların aradan qaldırılması ilə əlaqədar Milli CERT tərəfindən müəyyən edilmiş müddət ərzində CERT-lər, informasiya infrastrukturunun subyektləri, o cümlədən internet informasiya ehtiyatlarının sahibləri tərəfindən tədbirlər görülərək nəticəsi barədə Milli CERT-ə məlumat verilməlidir.

20-10.6. Bu Qanunun 20.9-3-cü maddəsinin tələbləri nəzərə alınmaqla, CERT-lər arasındakı, həmçinin CERT-lərlə və informasiya infrastrukturu subyektləri ilə Milli CERT arasındakı fəaliyyətin əlaqələndirilməsi və fasiləsiz məlumat mübadiləsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vahid kibertəhlükəsizlik platforması vasitəsilə təmin edilir.

20-10.7. CERT-lər və informasiya infrastrukturu subyektləri informasiya infrastrukturuna yönəlmiş kiberhücumlara qarşı cavab tədbirlərinin görülməsi, habelə kibertəhdidlərin və kiberinsidentlərin qarşısının alınması ilə bağlı Milli CERT-in həyata keçirdiyi fəaliyyətə zəruri şərait yaratmalı və dəstək verməlidirlər.

20-10.8. Ölkəni hədəf alan kibertəhdidlər və kiberhücumlar barədə məlumatların digər dövlətlərin bu sahədə səlahiyyətli qurumlarından əldə edilməsi, həmçinin digər ölkələri hədəf alan hücumlar barədə məlumatların ötürülməsi Milli CERT vasitəsilə və ya Milli CERT-i məlumatlandırmaqla həyata keçirilir.

20-10.9. CERT-lər, informasiya infrastrukturunun subyektləri, həmçinin ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturu subyektləri, o cümlədən internet provayderlər, hostprovayderlər və internet informasiya ehtiyatının sahibləri Milli CERT tərəfindən kibertəhlükəsizlik vəziyyətinin öyrənilməsi, proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması məqsədilə göndərilən sorğuları 24 saat, rəqəmsal tədqiqatın aparılması ilə bağlı göndərilən sorğuları isə 5 iş günü ərzində cavablandırmalıdır.

**Maddə 20-11. İnformasiya infrastrukturunun informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyi**

20-11.1. İnformasiya infrastrukturunun kibertəhlükəsizliyi informasiya infrastrukturu subyekti tərəfindən informasiya infrastrukturu obyektinin kibertəhlükəsizliyində zəifliklərin, boşluqların və digər uyğunsuzluqların aşkar olunması məqsədilə risklərin qiymətləndirilməsi, təhlükəsizlik auditlərinin keçirilməsi və onların nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin görülməsi yolu ilə təmin edilir.

20-11.2. İnformasiya infrastrukturu subyekti bu Qanunun 20-7.8-ci, 20-7.12-ci, 20-9.3-cü, 20-9.4-cü, 20-10.2-ci və 20-10.6-cı maddələrinin tələbləri nəzərə alınmaqla, informasiya infrastrukturu obyektlərinə qarşı yönəlmiş kiberinsident və kiberhücumlar barədə məlumatın onların aşkarlandığı andan dərhal sonra Milli CERT-ə təqdim olunmasını təmin etməlidir.

20-11.3. İnformasiya infrastrukturu subyektinin müraciəti əsasında kibertəhlükəsizlik və proaktiv kibertəhlükəsizlik tədqiqatı üzrə xidmətlər Milli CERT tərəfindən ödənişli əsaslarla həyata keçirilir. Ödənişin məbləği tərəflər arasında bağlanılan müqavilə əsasında müəyyən edilir.

20-11.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən kiberinsidentləri aşkarlama, ölçmə meyarları və indikatorları müəyyənləşdirilərək həmin orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və mütəmadi yenilənməsi təmin edilir.

20-11.5. CERT-lər,SOC-lar, həmçinin informasiya infrastrukturu subyektləri, o cümlədən internet informasiya ehtiyatlarının sahibləri, internet provayderlər və hostprovayderlər tərəfindən Milli CERT-in kibertəhlükə-sizliyin təmin edilməsi (kibertəhdidlərin, kiberhücumların və kiberinsi-dentlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması) ilə əlaqədar göstərişlərinin yerinə yetirilməməsi, informasiya infrastrukturuna yönəlmiş kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər barədə məlumatların dərhal Milli CERT-ə təqdim edilməməsi, eləcə də Milli CERT-in informasiya infrastrukturunun kibertəhlükəsizlik vəziyyətinin öyrənilməsi və proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması məqsədilə göndərdiyi sorğuların 24 saat, rəqəmsal tədqiqatın aparılması ilə bağlı göndərdiyi sorğuların isə 5 iş günü ərzində cavablandırılmaması, kiberinsidentlərin və kiberhücumların real vaxt rejimində fasiləsiz monitorinqinin və onlara qarşı ilkin texniki cavab tədbirlərinin həyata keçirilməməsi, eləcə də belə fəaliyyətlər nəticəsində əldə edilən məlumatların dərhal Milli SOC-a ötürülməməsi, rəqəmsal tədqiqatın və proaktiv kibertəhlükəsizlik tədqiqatına şəraitin yaradılmaması və reyestrə daxil edilmədən CERT və SOC kimi fəaliyyətin göstərilməsi, ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə ümumi və xüsusi tələblərin (informasiya infrastrukturunun subyektləri, o cümlədən internet provayderlər, hostprovayderlər və internet informasiya ehtiyatının sahibləri tərəfindən) yerinə yetirilməməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

20-11.6. Domen adı "az" ("gov.az" istisna olmaqla) ölkə kodlu yüksək səviyyəli domen zonasında yerləşən internet informasiya ehtiyatlarının sahibləri tərəfindən Milli CERT-in kibertəhlükəsizliyin təmin edilməsi (kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması) ilə əlaqədar göstərişlərinin yerinə yetirilməməsi domen adının "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında olan qeydiyyatının xitamı, domen adına texniki xidmətin dayandırılması üçün əsasdır. Bu halda Milli CERT domen adının qeydiyyatını aparan orqandan domen adının qeydiyyatına xitam verilməsini, ona texniki xidmətin dayandırılmasını (o cümlədən məhkəmə qaydasında) tələb edə, maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərə münasibətdə isə həmin tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edir.

**Maddə 20-12. Rəqəmsal tədqiqatın aparılması**

20-12.1. İnformasiya infrastrukturu obyektlərində baş vermiş kiberinsidentlər barədə əldə edilən məlumatlar əsasında Rəqəmsal tədqiqat mərkəzi tərəfindən onların risk əsaslı qiymətləndirilməsi aparılır. Qiymətləndirilmənin nəticəsinə uyğun olaraq Rəqəmsal tədqiqat mərkəzi rəqəmsal tədqiqatı aparılmalı olan kiberinsidentləri müəyyən edir.

20-12.2. Rəqəmsal tədqiqat mərkəzi tərəfindən sahə üzrə fəaliyyət göstərən CERT-lər kiberinsidentlərin rəqəmsal tədqiqatının aparılmasına cəlb edilə bilərlər.

20-12.3. Rəqəmsal tədqiqat zamanı CERT-lər və ya Rəqəmsal tədqiqat mərkəzi tərəfindən əldə olunan məlumatların bütövlüyü qorunmalı, onların dəyişdirilməsinə, silinməsinə və ya saxtalaşdırılmasına yol verilməməli, rəqəmsal tədqiqat zamanı beynəlxalq kibertəhlükəsizlik standartlarına uyğun metod və vasitələrdən istifadə olunmalıdır.

20-12.4. Rəqəmsal tədqiqat prosesi CERT-lər və ya Rəqəmsal tədqiqat mərkəzi tərəfindən sənədləşdirilməli, rəqəmsal dəlillərin əldə edilməsi, saxlanılması, ötürülməsi, təhlili mərhələləri həmin sənəddə ardıcıl və izlənilə bilən formada əks olunmalıdır.

20-12.5. Rəqəmsal tədqiqat nəticəsində əldə olunan rəqəmsal dəlillər və rəqəmsal tədqiqata dair sənədlər Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunlarında və digər normativ hüquqi aktlarında müəyyən edilmiş tədbirlərin görülməsi üçün müvafiq dövlət orqanına (qurumuna) təqdim edilir.

20-12.6. Rəqəmsal tədqiqatın rəsmiləşdirilməsi və nəticəsinə dair məlumatlar və sənədlər Rəqəmsal tədqiqat mərkəzi tərəfindən 3 ildən az olmayan müddətdə saxlanılmalıdır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 454-VIIQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 454-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin qırx ikinci (hər iki halda), qırx üçüncü, qırx doqquzuncu, əlli birinci və əlli üçüncü abzaslarında, 14-cü maddəsinin səkkizinci hissəsində, 14-3.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-3.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 14-3.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 14-3.4-cü (hər iki halda), 14-3.5-ci, 14-3.6-cı (hər iki halda), 14-3.7-ci, 14-4.1-ci, 14-4.2-ci maddələrində, 14-4.3-cü maddəsinin üçüncü cümləsində, 20-7.5-ci maddəsinin birinci cümləsində (hər iki halda), 20-7.8-ci maddəsində, 20-7.10-cu maddəsinin birinci və ikinci cümlələrində, 20-8.2-ci maddəsinin birinci cümləsində, 20-8.3-cü maddəsində, 20-8.8-ci maddəsinin birinci cümləsində, 20-8.10-cu, 20-8.11-ci maddələrində, 20-8.12-ci maddəsinin birinci və ikinci cümlələrində, 20-8.17-civə 20-10.1-ci maddələrinin birinci cümlələrində, 20-10.6-cı və 20-11.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-4.2-ci maddəsində və 20-7.10-cu maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 14-cü maddəsinin səkkizinci hissəsində və 20-7.5-ci maddəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.4. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin əlli üçüncü abzasında, 14-3.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-3.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 14-3.3-cü maddəsinin ikinci cümləsində (birinci halda), 14-3.4-cü (ikinci halda), 14-3.6-cı (ikinci halda), 14-4.1-ci maddələrində və 14-4.3-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 14-3.2-ci maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində, 14-3.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 14-3.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 14-3.4-cü (birinci halda), 14-3.5-ci və 14-3.6-cı (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx üçüncü abzasında və 20-7.5-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;

1.8. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx ikinci abzasında (birinci halda), 20-7.8-ci maddəsində, 20-8.17-ci maddəsinin birinci cümləsində və 20-10.1-ci maddəsinin birinci cümləsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (kritik informasiya infrastrukturuna münasibətdə) və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;

1.9. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx ikinci (ikinci halda), qırx doqquzuncu və əlli birinci abzaslarında, 20-8.2-ci maddəsinin birinci cümləsində, 20-8.3-cü maddəsində, 20-8.8-ci maddəsinin birinci cümləsində, 20-8.10-cu, 20-8.11-ci maddələrində, 20-8.12-ci maddəsinin birinci və ikinci cümlələrində, 20-10.6-cı və 20-11.4-cü maddələrində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Qanunun 14-3.7-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 14-4.2-ci maddəsinə uyğun olaraq, tənzimləyici test mühitinin həyata keçirilməsi qaydalarına, o cümlədən onda iştirak edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi, tənzimləyici test mühitinin maksimum müddəti və normativ hüquqi aktların tələblərindən istisnaların tətbiqi qaydasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 20-7.10-cu maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət orqanlarına (qurumlarına) məxsus (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektləri istisna olmaqla), habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturunun informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyinin təmin edilməsi qaydalarına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları doqquz ay müddətində təsdiq etsin:

2.3.1. həmin Qanunun 14-cü maddəsinin səkkizinci hissəsinə uyğun olaraq, dövlət informasiya ehtiyatları və sistemlərinin (kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə məxsus informasiya ehtiyatları və sistemləri, eləcə də kritik informasiya infrastrukturu, Azərbaycan Respublikası Mərkəzi Bankının və maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərin (dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin) informasiya infrastrukturu istisna olmaqla) təhlükəsizlik meyarları üzrə monitorinqinin və auditinin aparılması, habelə informasiya təhlükəsizliyi üzrə rəy verilməsi qaydalarını;

2.3.2. həmin Qanunun 20-7.5-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə ümumi tələbləri;

2.4. həmin Qanunun 20-7.1-ci maddəsində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) təklifləri əsasında həmin orqanlar (qurumlar) tərəfindən kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinin təşkilininvə ya müəyyən edilməsinin maliyyələşdirilməsi ilə bağlı tədbirlər görsün;

2.5. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 454-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra - EHİS) və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinin, eləcə də fərdi məlumatların mühafizəsinin təmin edilməsi məqsədilə bu Fərmanın 2.3.1-ci yarımbəndində qeyd edilən qaydalarda aşağıdakılar da əksini tapmalıdır:

3.1. EHİS-ə və "Hökumət buludu"na inteqrasiya edilən və miqrasiya olunan dövlət informasiya ehtiyatları və sistemləri üzrə aparılan monitorinq və auditin nəticələri, habelə informasiya təhlükəsizliyi üzrə verilən rəylərin Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən məlumat üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim edilməsi;

3.2. EHİS-ə və "Hökumət buludu"na inteqrasiya edilən və miqrasiya olunan dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyinin Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə həyata keçirilməsi.

4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 20-7.1-ci maddəsində nəzərdə tutulan dövlət orqanları (qurumları) kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərininvə təhlükəsizlik əməliyyatları mərkəzlərinin həmin Qanunun tələblərinə uyğun olaraq təşkili və həmin Qanunun 20-8.3-cü maddəsində nəzərdə tutulan reyestrə daxil edilməsi üçün bir il müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

5. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinin və təhlükəsizlik əməliyyatları mərkəzlərinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 20-8.3-cü maddəsində nəzərdə tutulan reyestrə daxil edilməsi üçün bir il müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

6. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390 (Cild I); 2024, № 7, maddə 808) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1."İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin birinci hissəsinin iyirmi səkkizinci, iyirmi doqquzuncu, qırx ikinci (hər iki halda), qırx üçüncü, qırx doqquzuncu, əlli birinci və əlli üçüncü abzaslarında, 14-cü maddəsinin üçüncü hissəsində, dördüncü hissəsinin birinci və ikinci cümlələrində, altıncı hissəsinin ikinci cümləsində, yeddinci hissəsinin birinci və ikinci cümlələrində, səkkizinci hissəsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-1.3-cü, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (hər iki halda), 14-2.4-cü maddəsində, 14-3.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-3.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 14-3.3-cü maddəsinin ikinci cümləsində (hər üç halda), 14-3.4-cü (hər iki halda), 14-3.5-ci, 14-3.6-cı (hər iki halda), 14-3.7-ci, 14-4.1-ci, 14-4.2-ci maddələrində, 14-4.3-cü maddəsinin üçüncü cümləsində, 20-1.3-cü maddəsində, 20-2.2-ci maddəsinin birinci cümləsində, 20-2.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 20-4.1-ci, 20-6.5-ci maddələrində, 20-7.5-ci maddəsinin birinci cümləsində (hər iki halda), 20-7.8-ci maddəsində, 20-7.10-cu maddəsinin birinci və ikinci cümlələrində, 20-8.2-ci maddəsinin birinci cümləsində, 20-8.3-cü maddəsində, 20-8.8-ci maddəsinin birinci cümləsində, 20-8.10-cu, 20-8.11-ci maddələrində, 20-8.12-ci maddəsinin birinci və ikinci cümlələrində, 20-8.17-ci və 20-10.1-ci maddələrinin birinci cümlələrində, 20-10.6-cı və 20-11.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

6.2. 2.1-1-ci və 2.1-2-ci bəndlər müvafiq olaraq 2.1-2-ci və 2.1-3-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 14-4.2-ci maddəsində və 20-7.10-cu maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

6.3. 2.1-2-ci, 2.4-cü və 2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1-2. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin iyirmi doqquzuncu abzasında,14-cü maddəsinin səkkizinci hissəsində,14-2.3-cü maddəsinin birinci cümləsində (ikinci halda), 20-1.3-cü maddəsində, 20-2.2-ci maddəsinin birinci cümləsində, 20-2.3-cü maddəsinin ikinci cümləsində, 20-4.1-ci maddəsində və 20-7.5-ci maddəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş "orqanın (qurumun)" səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

"2.4. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin əlli üçüncü abzasında, 14-cü maddəsinin dördüncü hissəsinin birinci cümləsində, 14-1.1-ci maddəsində, 14-1.2-ci maddəsinin birinci cümləsində, 14-2.1-ci, 14-2.2-ci maddələrində, 14-2.3-cü maddəsinin birinci cümləsində (birinci halda), 14-2.4-cü maddəsində, 14-3.1-ci maddəsinin birinci və ikinci cümlələrində, 14-3.2-ci maddəsinin birinci cümləsində (birinci halda), 14-3.3-cü maddəsinin ikinci cümləsində (birinci halda), 14-3.4-cü (ikinci halda), 14-3.6-cı (ikinci halda), 14-4.1-ci maddələrində və 14-4.3-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.5. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx üçüncü abzasında, 14-cü maddəsinin yeddinci hissəsinin birinci və ikinci cümlələrində, 14-1.2-ci maddəsinin ikinci cümləsində və 20-7.5-ci maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;";

6.4. aşağıdakı məzmunda 2.6 - 2.10-cu bəndlər əlavə edilsin:

"2.6. həmin Qanunun 14-3.2-ci maddəsinin birinci (ikinci halda) və ikinci cümlələrində, 14-3.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 14-3.3-cü maddəsinin ikinci cümləsində (üçüncü halda), 14-3.4-cü (birinci halda), 14-3.5-ci və 14-3.6-cı (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx ikinci abzasında (birinci halda), 20-7.8-ci maddəsində, 20-8.17-ci maddəsinin birinci cümləsində və 20-10.1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (kritik informasiya infrastrukturuna münasibətdə) və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;

2.9. həmin Qanunun 2-ci maddəsinin birinci hissəsinin qırx ikinci (ikinci halda), qırx doqquzuncu və əlli birinci abzaslarında, 20-8.2-ci maddəsinin birinci cümləsində, 20-8.3-cü maddəsində, 20-8.8-ci maddəsinin birinci cümləsində, 20-8.10-cu, 20-8.11-ci maddələrində, 20-8.12-ci maddəsinin birinci və ikinci cümlələrində, 20-10.6-cı və 20-11.4-cü maddələrində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 14-3.7-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## Sinqapur Respublikasının Prezidenti zati-aliləri cənab Tarman Şanmuqaratnama

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 avqust 2026-cı il*

## "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Ukrayna Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il noyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Ukrayna Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ukrayna Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## M.B.Əhmədzadənin Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## M.B.Əhmədzadənin Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## F.E.İsgəndərovun Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında, eyni zamanda Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Eldar oğlu İsgəndərov Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında, eyni zamanda Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## F.E.İsgəndərovun Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Eldar oğlu İsgəndərov Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## V.İ.Sadıqovun Azərbaycan Respublikasının Belçika Krallığında, eyni zamanda Lüksemburq Böyük Hersoqluğunda fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vaqif İsmayıl oğlu Sadıqov Azərbaycan Respublikasının Belçika Krallığında, eyni zamanda Lüksemburq Böyük Hersoqluğunda fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

## N.A.Qurbanovanın Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 avqust 2026-cı il*

# ABŞ, Ermənistan və Azərbaycan Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin birinci ildönümü ilə bağlı Birgə Bəyanat yayıb

Amerika Birləşmiş Ştatları, Ermənistan Respublikası və Azərbaycan Respublikasının Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin birinci ildönümü ilə bağlı Birgə Bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bəyanatda bildirilib:

Bir il əvvəl Prezident Tramp Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla birlikdə Ağ Evdə tarixi Sammitə evsahibliyi edib və Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan sülh üçün Birgə Bəyannamə imzalayıblar. Üç liderin şahidliyində Ermənistan və Azərbaycanın xarici işlər nazirləri tərəfindən "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Sülhün və Dövlətlərarası Münasibətlərin Təsis Edilməsi haqqında Saziş" layihəsi paraflanıb. Bu birinci ildönümdə ölkələrimizin birlikdə əldə etdiyi nailiyyətlərə görə dərin qürur hissi keçirir və onilliklər boyu davam etmiş münaqişəyə son qoyan, Cənubi Qafqazı daha firavan gələcəyə doğru aparan bu təməl üzərində irəliləmək əzmindəyik. Sülhün təmin olunması istiqamətində bu tarixi və mühüm səylərə verilən yüksək qiymətin ifadəsi olaraq, Prezident Əliyev və Baş nazir Paşinyan birlikdə Prezident Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürüblər.

Birgə Bəyannamə ABŞ-nin dəstəyi ilə Ermənistan və Azərbaycan üçün sülhün möhkəmləndirilməsi, rifahın təmin edilməsi və tərəfdaşlığın dərinləşdirilməsi istiqamətində konkret yol xəritəsi müəyyən edib. Cəsarətli liderlərin bir araya gəlməsindən ötən bir il ərzində bu ölkələr davamlı uğurların təmin edilməsi üçün təməl işlər görüblər.

Ermənistan və Azərbaycan Ermənistan-Azərbaycan sərhədi boyunca sabitliyi qoruyub saxlayıb və hər iki tərəf münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası və davamlı sabitliyin təmin edilməsi üçün zəruri tədbirlər vasitəsilə etimadın gücləndirilməsi istiqamətində konkret addımlar atmaqdadırlar.




Multimodal tranzit marşrutu olacaq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP), infrastrukturun inkişafına rəhbərlik edəcək TRIPP İnkişaf Şirkətinin yaradılmasına dair ABŞ-Ermənistan razılaşması da daxil olmaqla, konkret irəliləyişlər sayəsində ideyadan reallığa çevrilməkdədir. Ermənistanda mühəndis-tədqiqat işləri artıq həyata keçirilməkdədir. Azərbaycan öz ərazisində Ermənistanda TRIPP-ə birləşəcək avtomobil yolu və dəmir yolunun tikintisini demək olar ki, başa çatdırıb. Üç ölkə həmçinin TRIPP marşrutu boyunca elektrik enerjisinin ötürülməsi xəttinin inşasını dəstəkləyir.

Amerika Birləşmiş Ştatları Cənubi Qafqaz və Mərkəzi Asiyada Trans-Xəzər Ticarət Marşrutuna (Orta dəhliz) özəl sektor investisiyalarının cəlb edilməsinə dəstək göstərmək məqsədilə Trans-Xəzər Sahibkarlıq Fonduna 201 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

Amerika Birləşmiş Ştatları həm Ermənistan, həm də Azərbaycanla yeni ikitərəfli strateji tərəfdaşlıqları müəyyən edən xartiyalar, habelə enerji təhlükəsizliyi, sərhəd infrastrukturu və təhlükəsizliyi, süni intellekt və yarımkeçiricilər sahəsində innovasiyalar və mühüm mineral ehtiyatlar üzrə anlaşma memorandumları imzalamaqla, əlaqələrini daha da dərinləşdirib. Bunlar hər üç ölkənin uzunmüddətli rifahına yönəlmiş sərmayələr olmaqla, artıq konkret nəticələr verib.

Ağ Evdə təşkil olunmuş Sülh Sammitinin ruhuna uyğun olaraq, Azərbaycan Ermənistana münasibətdə bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırıb. Bir il ərzində Azərbaycan ərazisi vasitəsilə Ermənistana və Ermənistandan təqribən 60,000 ton yük daşınıb. Azərbaycan həmçinin Ermənistanı 20,000 ton neft məhsulu ilə tədarük edib. İki ölkə ikitərəfli ticarətin həcminin artırılması istiqamətində fəaliyyətlərini davam etdirir.

İki ölkənin telekommunikasiya operatorları regional bağlantı marşrutlarının şaxələndirilməsi, Cənubi Qafqazda etibarlılıq və dayanıqlılığın artırılması və Avrasiya telekommunikasiya şəbəkələrində infrastrukturun inkişafına dəstək verəcək internet sazişi imzalayıb.

Həll olunmamış münaqişə dövrünün başa çatdığının təsdiqi olaraq, ATƏT-in Minsk qrupu və əlaqəli strukturlar Ermənistan və Azərbaycanın birgə müraciəti əsasında ləğv edilib.

Amerika Birləşmiş Ştatlarının dəvəti ilə Ermənistan və Azərbaycan Sülh Şurasına qoşulub, bununla da daha dinc və firavan dünyanın yaradılması istiqamətindəki səylərdə ABŞ ilə çiyin-çiyinə olduqlarını nümayiş etdiriblər.

Amerika Birləşmiş Ştatları, Ermənistan və Azərbaycan Ermənistanın və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına sarsılmaz dəstəklərini bir daha təsdiq edirlər. Hər üç dövlət 8 Avqust Birgə Bəyannaməsinin mətninə və ruhuna uyğun olaraq, onun tam şəkildə həyata keçirilməsinə, habelə regionun fövqəladə iqtisadi potensialının üzə çıxarılmasına sadiq qalır. Bundan əlavə, Amerika Birləşmiş Ştatları Ermənistan və Azərbaycanla imzalanmış ikitərəfli xartiyaların və anlaşma memorandumlarının tam şəkildə həyata keçirilməsinə və hər iki ölkə ilə ikitərəfli münasibətlərinin gücləndirilməsinə sadiqdir.

Həqiqi sülh bir gündə əldə edilmir, bununla belə, Prezident Trampın ifadə etdiyi kimi - verilən vədlər yerinə yetirilir. Azərbaycan və Ermənistanın davamlı sülhə doğru atdığı addımlar dünya üçün nümunə təşkil edir və bu baxımdan biz regionun parlaq və firavan gələcəyini səbirsizliklə gözləyirik.

# DTX: Beynəlxalq kibercinayətkar şəbəkələrin ölkəmizə qarşı qanunsuz əməllərinin qarşısı alınır

**Son vaxtlar Azərbaycan Respublikasının hüdudlarından kənarda fəaliyyət göstərən mütəşəkkil kibercinayətkar qruplaşmalar tərəfindən Azərbaycan mobil operatorlarına aid nömrələrdən istifadə edilməklə saxta sosial şəbəkə və ani mesajlaşma hesabları yaradılaraq dövlət qulluqçularını, eləcə də müxtəlif müəssisə və təşkilatların əməkdaşlarını hədəf alan çoxsaylı hüquq pozuntuları qeydə alınmaqdadır.**




Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, xarici vətəndaşların rəhbərlik etdiyi bu şəbəkələr xüsusi kompüter proqramları vasitəsilə dövlət qurumlarının, eləcə də müəssisə və təşkilatların rəsmi internet səhifələrindən əməkdaşların əlaqə nömrələrini kütləvi şəkildə əldə etməklə həmin nömrələrə müvafiq qurumun rəhbər şəxslərinin fotoşəkillərindən istifadə edərək yaradılmış saxta hesablardan "WhatsApp" tətbiqi vasitəsilə guya "təcili" xarakterli mesajlar göndərilir və hüquq-mühafizə orqanları adından fəaliyyət göstərən digər saxta hesaba yönəldilməklə xarici hesablara pul vəsaitinin köçürülməsi barədə və ya digər tapşırıqlar verilir.

Mövcud faktlar üzrə başlanılmış əməliyyat-istintaq tədbirləri çərçivəsində qeyd olunan cinayət əməllərinin bəzi iştirakçıları müəyyən edilib, barələrində beynəlxalq hüquqi prosedur tədbirləri başladılıb. Bundan əlavə, xarici dövlətlərin aidiyyəti orqanları, habelə müvafiq sosial şəbəkə və platformaların aid olduğu beynəlxalq texnologiya şirkətlərinin təhlükəsizlik bölmələri və platforma operatorları ilə birgə cinayətkar şəbəkə üzvlərinin tam ifşa olunması istiqamətində kompleks tədbirlər davam etdirilir.

"İnformasiya texnologiyalarının inkişafının geniş sui-istifadə imkanları ilə müşayiət olunduğu bir vaxtda Azərbaycan Respublikasının vətəndaşları sosial şəbəkələr və ani mesajlaşma platformaları üzərindən cinayətkar məqsədlə qurulan şübhəli əlaqələrə qarşı sayıqlıq nümayiş etdirməli, dövlət orqanlarını vaxtında məlumatlandırmalıdırlar", - deyə məlumatda vurğulanıb.

# BP 6 aylıq fəaliyyətinin nəticələrini açıqlayıb

## Hasilat, ixrac və kəşfiyyat davam edib, fəaliyyət şaxələnib, yeni layihələr icra olunub

**BP şirkəti cari ilin birinci yarısına aid hesabatını "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsində gedən işlər haqqında məlumatla başlayıb. Belə ki, bu yataqlar blokunda hasilat ahəngdar və təhlükəsiz şəkildə davam edir. İlk altı ay üçün AÇG-dən ümumi hasilat gündə orta hesabla 323 min barel - "Çıraq"dan 19 min 300, "Mərkəzi Azəri"dən 88 min, "Qərbi Azəri"dən 73 min 300, "Şərqi Azəri"dən 45 min, "Dərinsulu Günəşli"dən 47 min, "Qərbi Çıraq"dan 24 min və ACE-dən 26 min 400 barel təşkil edib. Beləliklə, AÇG platformaları yarım ildə ümumilikdə təxminən 59 milyon barel, yəni 8 milyon ton neft verib.**

AÇG-nin yenilikləri də var. Burada aparılan dördölçülü yüksəkdəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində keçən il əldə olunan məlumatların emalı tamamlanıb.

"Dərinsulu Günəşli" ərazisində bir çox quyuda sualtı müdaxilə proqramı çərçivəsində əməliyyatlar davam edib. Birinci yarımildə "Mərkəzi Azəri Qaz Genişləndirilməsi" (CAGE) layihəsi üzrə işlər plana uyğun gedib. "Qərbi Azəri"də qazılmış və uğurla təhvil verilmiş C44 neft hasilatı quyusu Xəzərdə indiyədək qazılmış ilk multilüləli quyu olmaqla, AÇG layihəsi üçün əlamətdar bir nailiyyətdir.

Ən mühüm yenilik isə bu ilin birinci yarısında AÇG-də sərbəst təbii qaz (STQ) hasilatı əməliyyatlarının başlanmasıdır.

Qazdan söz düşmüşkən qeyd edək ki, birinci yarımildə "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinə və Avropadakı alıcılara qaz çatdırılması davam edib.

Sözügedən dövrdə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 14 milyard standart kubmetr qaz və təxminən 2 milyon ton (təqribən 15 milyon barel) kondensat cıxarılıb.

"Şahdəniz" qazını nəql edən Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) ilin ilk altı ayı ərzində ixrac üçün gündəlik orta ötürücülük gücü 63,7 milyon kubmetr olub.

Cari il iyulun 1-dən CQBK-nın ümumi operatorluğu "BP Exploration (Caspian Sea) Limited" şirkətindən SOCAR-a məxsus törəmə müəssisə olan "SOCAR Midstream Operations" MMC-yə keçib.

"Şahdəniz" Kompressiya Layihəsi (ŞDK) üzrə işlər də təhlükəsiz şəkildə və qrafiki qabaqlamaqla irəliləyir. ŞDK platformasının üst modullarının və dayaq blokunun tikintisi işləri müvafiq olaraq Bayıl istehsalat-quraşdırma sahəsində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda plana uyğun davam edir.

ŞDK-ya aid ümumi tikinti işlərinin 2029-cu ildə başa çatması ilə yeni platformanın həmin ildə "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan alınan qaz həcmlərini kompressiya etmək üçün qəbula hazır olacağı planlaşdırılır.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə bu ilk altı ayı ərzində Səngəçal terminalından ixrac olunmuş təqribən 13 milyon ton (təxminən 97 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 131 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Hazırda BTC əsasən Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

Yeri gəlmişkən, Səngəçaldan CQBK və genişləndirilmiş CQBK, terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus kəmərlə qaz ixracı da fasiləsiz davam edir. Ötən yarımillikdə terminaldan həmçinin gündəlik orta hesabla təxminən 74 milyon standart kubmetr (təxminən 2 milyard 611 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

Digər layihələrə də nəzər salaq. Səngəçal Terminalının Elektrikləşdirilməsi (STEL) layihəsi əsas tikinti mərhələsindən istismar sınaqları və işəsalınmaya hazırlıq mərhələsinə keçib. Birinci mərhələ üçün tələb olunan əsas avadanlıqların sahəyə çatdırılması artıq tamamlanıb və hazırda quraşdırma işləri gedir. Terminal ərazisindən kənarda yerləşən yeni "Azərenerji" obyektlərinin tikintisi və istismar sınaqları əsasən sona çatıb.

Xatırladaq ki, STEL layihəsi Cəbrayıl rayonunda tikilən 240 meqavatlıq günəş-elektrik stansiyası ilə "virtual enerjiötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir.

İlin ilk altı ayında "Şəfəq" layihəsi Cəbrayılda yerləşən tikinti sahəsində də irəliləyib. Aprel ayının əvvəlində layihə sahəsində ilk günəş paneli quraşdırılıb. Layihə üzrə tikinti işlərində yerli resurslardan istifadə artmaqda davam edir.



"Şəfəq-Asiman" dəniz blokunda isə layihəni irəli aparacaq ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun əlavə qiymətləndirilməsi tələb olunur. Bu məqsədlə hazırda Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla gələcək fəaliyyətlərin planlaşdırılması üzrə işlər aparılır. Bu fəaliyyətlərə imkan yaratmaq üçün 2025-ci ilin iyun ayında "Şəfəq-Asiman" Hasilatın Pay Bölgüsü Sazişinin kəşfiyyat dövrü uzadılıb və BP bu dövr üçün operator olaraq qalır.

"Qarabağ" yatağı haqqında bilgiləri artırmaq, quyuların planlaşdırılmasına və yatağın işlənmə strategiyalarının optimallaşdırmasına kömək məqsədilə bu ilin əvvəlində dənizdibi sensor qovşaqlarla seysmik tədqiqat həyata keçirilib. Tədqiqat nəticəsində əldə olunmuş məlumatların emalı davam edir. Hazırda yataqda yüksəkdəqiqlikli - ultra yüksəkdəqiqlikli seysmik tədqiqat proqramından əldə olunmuş məlumatların emalı da aparılır.

ADUA layihəsi üzrə ilk addım olaraq aprel ayında suyun 20-40 metr dərinliyində ikiölçülü yüksəkdəqiqlikli seysmik tədqiqat həyata keçirilib. ADUA blokunda seysmik tədqiqata aid ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı 2025-ci ilin dekabr ayında ictimaiyyətə açıqlanıb və sənədin yekun variantı bu ilin mart ayında dövlət tərəfindən təsdiqlənib.

BP öz hesabatında Azərbaycan vətəndaşları olan işçilərin sayını da açıqlayıb - 2363 nəfər. Buraya müddətli müqavilə əsasında işləyənlər də daxildir. 2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

Əməliyyatçı şirkət sosial layihələri ilə regiondakı ölkələrin əhalisi üçün hiss edilən faydalar yaratmağı öz fəaliyyətinin ayrılmaz hissəsi hesab edir. Bu layihələrə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, mədəni irs və idmanın inkişafına dəstək və s. daxildir.

Bu ilin birinci yarısında BP və tərəfdaşları belə sosial investisiya layihələrinə Azərbaycanda təxminən 0,6 milyon dollar vəsait xərcləyib. Bundan əlavə, ayrıca bir şirkət kimi öz adından ölkəmizdə sponsorluq etdiyi layihələrə sözügedən dövrdə təxminən 0,9 milyon dollar vəsait yönəldib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Sülh, sabitlik və tərəqqi

## Azərbaycanın təşəbbüslərinin Ağ Evin güclü dəstəyi ilə birləşməsi Cənubi Qafqazda yeni rifah dövrünün başlamasına yol açıb



**Ötən il avqustun 8-də Vaşinqtonda Ağ Evin evsahibliyi ilə keçirilmiş üçtərəfli sammit Cənubi Qafqazın geosiyasi xəritəsini kökündən dəyişdirən, regionda 30 ildən artıq davam edən münaqişəyə tamamilə son qoyan diplomatiya zəfəridir. Eyni zamanda Azərbaycan-ABŞ əlaqələrini pik nöqtəsinə çatdıran tarixi Zirvənin birillik ildönümündə Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa ünvanladığı məktub və aparılan telefon danışığı ötən bir ilin yekunlarına baxış və gələcək strateji hədəflərin təsbit olunması baxımından xüsusi əhəmiyyət daşıyır.**

### Sülhün real faydaları

ABŞ-nin Cənubi Qafqazda normallaşma prosesinə birbaşa dəstəyi sülhün əldə edilməsində həlledici amil oldu. Donald Trampın vasitəçiliyi və şahidliyi ilə imzalanan sənədlər, o cümlədən əldə olunan mühüm razılaşmalar bölgədə dayanıqlı sülhün təməlini qoydu. Ötən ilin avqustunda Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in mətni rəsmən paraflandı.

İmzalanan Birgə Bəyannamə ilə münaqişənin keçmişdə qaldığı təsdiq edildi, beynəlxalq sərhədlərin toxunulmazlığı və güc tətbiq etmənin yolverilməzliyi prinsipləri əsasında yeni qonşuluq münasibətlərinin bünövrəsi qoyuldu.

8 avqust zirvəsində tərəflər Minsk qrupunun və onunla əlaqədar strukturların tam ləğvi üçün ATƏT-in baş katibinə birgə müraciət ünvanladılar.

TRIPP layihəsinin (Zəngəzur dəhlizi) reallaşması ilə bağlı razılaşmanın əldə olunması Vaşinqton Zirvəsinin ən mühüm nailiyyətlərindəndir. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq bu layihə Orta dəhlizin ən mühüm halqasına çevrilərək Avrasiya nəqliyyat şəbəkəsini yenidən formalaşdırır.

Prezident İlham Əliyev ABŞ liderinə ünvanladığı məktubunda Vaşinqton Zirvə görüşünün rolunu xüsusi qiymətləndirərək yazıb: "Bir il əvvəl Siz öz üzərinizə məsul tarixi missiyanı götürərək Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması məsələsində dönüş nöqtəsi yaratdınız. Qətiyyətiniz və sarsılmaz iradəniz sayəsində Siz üç onillik ərzində davam edən münaqişənin tamamilə sona çatmasına, xalqlarımız üçün barışığın və qarşılıqlı tərəfdaşlıq dövrünün əsasını qoymağa nail oldunuz".

Vaşinqton razılaşmalarından keçən bir il ərzində regionda təhlükəsizlik və iqtisadi inteqrasiya sahəsində mühüm irəliləyişlər qeydə alınıb. Ən əsası sərhəd xəttində sülhə xələl gətirə biləcək heç bir ciddi hərbi insident baş verməyib.

Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətlər aradan qaldırılıb. Azərbaycan neft məhsulları, eləcə də üçüncü ölkələrdən taxıl və digər mallar Azərbaycan üzərindən Ermənistana nəql edilməyə başlayıb.

TRIPP layihəsi üzrə Azərbaycan ərazisindəki nəqliyyat infrastrukturunun tikintisi başa çatmaq mərhələsindədir, Ermənistan ərazisində isə işlərin tezliklə başlaması gözlənilir.

Prezident İlham Əliyev məktubunda sözügedən inkişaf dinamikasını belə ifadə edib: "Bu gün Azərbaycan cəmiyyəti artıq bölgədə formalaşmış yeni reallıqda və sülh mühitində yaşamağa uyğunlaşır. Ötən il ərzində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin inkişafı baxımından vacib işlər görüldü... ...Biz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur, onu daha da möhkəmləndirmək və əməli fəaliyyətə çevirmək, qarşılıqlı etimad mühitini formalaşdırmaq üçün səylərimizi davam etdiririk".

### Azərbaycan-ABŞ strateji tərəfdaşlığının ən yüksək mərhələsi

İki ölkə lideri - İlham Əliyevin və Donald Trampın şəxsi dostluğu və siyasi iradəsi sayəsində Bakı ilə Vaşinqton arasında 34 ildən çox tarixi olan diplomatik münasibətlər hazırda ən yüksək zirvəyə çatıb. ABŞ rəhbərliyi tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması da tarixi ədalətin bərpası və Vaşinqtonun Bakıya olan strateji etimadının göstəricisidir.

Vaşinqton Sammitindən sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində ticarət, energetika, süni intellekt, nəqliyyat və təhlükəsizlik sahələrini əhatə edən Strateji Tərəfdaşlıq Xartiyası imzalandı.

Cari il avqustun 8-də Ağ Ev rəhbəri ilə Prezident İlham Əliyevin telefon danışığı zamanı da Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığa dair sənədin imzalanması tarixi hadisə kimi qiymətləndirilib, Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni yüksək səviyyəyə qalxdığı, strateji mahiyyət daşıdığı vurğulanıb və bunun da geniş bir bölgədə sülhə, sabitliyə töhfə verdiyi qeyd olunub.

Prezident İlham Əliyev ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinin çatdığı bu yüksək səviyyəni Donald Trampa ünvanladığı məktubunda belə vurğulayıb: "Fəxrlə deyə bilərik ki, Azərbaycan-ABŞ əlaqələrinin bugünkü səviyyəsi 34 illik diplomatik münasibətlərinin tarixində ən yüksək zirvədə qərarlaşmışdır... ... Biz bundan sonra da Azərbaycan ilə ABŞ arasında dostluğa, qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan əlaqələri və strateji tərəfdaşlığı genişləndirmək və yeni məzmunla zənginləşdirmək əzmindəyik".

Vaşinqton Zirvə görüşündən ötən bir il sübut etdi ki, Cənubi Qafqazda bərqərar olan sülh müvəqqəti siyasi vəziyyət deyil, dönməz xarakter daşıyan tarixi reallıqdır.

Yeri gəlmişkən, vurğulayaq ki, ABŞ Prezidenti Donald Tramp tərəfindən dövlətimizin başçısının G20 sammitinə dəvət edilməsi ölkəmizin beynəlxalq nüfuzunun və regional liderliyinin göstəricisidir.

Azərbaycanın ardıcıl və məqsədyönlü sülh səylərinin ABŞ-nin güclü dəstəyi ilə birləşməsi Cənubi Qafqazda sabitliyin bərqərar olunmasına və bütün bölgə üçün yeni rifah dövrünün başlamasına yol açıb. Bu gün artıq insanlarımız münaqişə və qarşıdurmanın deyil, dinc yanaşı yaşamanın, ortaq iqtisadi inkişafın bəhrələrini görməyə başlayıblar.

Eyni zamanda Bakı ilə Vaşinqton arasında formalaşan strateji tərəfdaşlıq keyfiyyətcə yeni bir mərhələyə yüksəlib. Azərbaycan və ABŞ-nin təhlükəsizlik, enerji, nəqliyyat və qabaqcıl texnologiyalar sahəsində güclənən tərəfdaşlığı yalnız ikitərəfli münasibətlərə deyil, ümumilikdə geostrateji balansa və qlobal nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə mühüm töhfə verir. Bütün bunlar göstərir ki, 2025-ci il 8 avqust tarixi təkcə diplomatik razılaşma kimi deyil, Cənubi Qafqazın qlobal inteqrasiyaya qədəm qoyduğu parlaq səhifə kimi tarixdə qalacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Bakının sülh gündəliyinin alternativi yoxdur

## Prezident İlham Əliyevə Nikol Paşinyanın telefon zəngi yeni reallıqların və şərtlərin İrəvan tərəfindən qəbul edilməsinin təsdiqidir

**Azərbaycan və Ermənisan arasında sülh prosesi regionun siyasi-iqtisadi mənzərəsini köklü şəkildə dəyişən praktiki mərhələyə qədəm qoyub. Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyünü tam bərpa edən Azərbaycan regionda tamamilə yeni şərtlər formalaşdırıb. Məhz Bakının təşəbbüsü ilə reallaşan sülh gündəliyi Cənubi Qafqazın gərginlik və hərbi münaqişə imicini geridə qoyaraq, bölgəni əməkdaşlıq meydanına çevirmək üçün möhkəm zəmin yaradıb.**

Yeni geosiyasi şəraitin diqqətçəkən nümunələrindən biri avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın telefon əlaqəsi saxlaması olub. İki ölkə lideri arasında telefon danışığının baş tutması Bakı-İrəvan xəttində yeni diplomatik reallığın və birbaşa dialoq mexanizminin aydın təzahürüdür.

Danışıq zamanı tərəflər 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş tarixi görüşün birinci ildönümü, habelə sülh sazişinin mətninin ilkin paraflanması münasibətilə fikir mübadiləsi aparıblar. Eyni zamanda ötən il ərzində münasibətlərin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişdən bəhs ediblər. Söhbət zamanı iki ölkə arasında iqtisadi və ticarət əlaqələrinin inkişafının sülhün faydalarının konkret təzahürü olduğu vurğulanıb. Bu kontekstdə tərəflər Azərbaycanın neft məhsullarının Ermənistana ixracını, habelə tranzit yüklərin Azərbaycan ərazisindən Ermənistana daşınmasını diqqətə çatdırıblar. Bundan əlavə, tərəflər Vaşinqtonda əldə edilmiş razılaşmalara uyğun olaraq TRIPP marşrutunun icrasından danışıblar. Tərəflər sülh prosesinin irəlilədilməsi və regionda davamlı sabitliyin, o cümlədən bağlantıların və iqtisadi əməkdaşlığın təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Nikol Paşinyanın telefon zəngi regional proseslərin və diplomatik səylərin məhz Azərbaycanın müəyyənləşdirdiyi strateji çərçivədə idarə olunmasının məntiqi nəticəsidir. Bu onu göstərir ki, 44 günlük müharibədən sonra gündəmə gətirilmiş sülh prosesini müxtəlif bəhanələrlə uzadan Ermənistan hökuməti 2023-cü ildən etibarən regionda yaranmış yeni güc balansı ilə barışmaq, Bakının təşəbbüsü ilə formalaşan sülh gündəliyinə qayıtmaq məcburiyyətində qalıb. İrəvan anlamağa başlayıb ki, mövcud vəziyyətdə sülh gündəliyindən yayınmaq və ya onu pozmaq Ermənistanın özü üçün böyük risklər və təhlükələr vəd edir.

Şimal və cənub qonşularımızda, ümumiyyətlə, ətraf bölgələrdə baş verən hərbi-siyasi qarşıdurmalar İrəvanın regional manevr imkanlarını tamamilə məhdudlaşdırıb. Belə bir şəraitdə Ermənistanın bir dövlət kimi ayaqda qalması, müstəqilliyini təmin etməsi, o cümlədən Qərbə inteqrasiya xətti birbaşa Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasından asılıdır. Bu, Ermənistan üçün taleyüklü məsələdir. İrəvanın vəziyyətdən yeganə çıxış yolu sülh gündəliyinə sadiq qalmaqla, öhdəliklərini icra etməklə yekun sülh müqaviləsini imzalamaqdır.

Əlbəttə, sülh prosesinin tam yekunlaşması və diplomatik razılaşmaların möhkəmlənməsi üçün sadəcə telefon danışıqları, xoşməramlı bəyanatlar kifayət etmir. Düzdür, Paşinyanın Vaşinqton anlaşmalarına sadiqliyini təsdiqləməsi təqdirəlayiqdir. Lakin yekun sülh sazişinin imzalanması yolunda əsas maneə Ermənistanın mövcud konstitusiyasında Azərbaycana qarşı yer alan ərazi iddialarıdır. İrəvan öz qanunvericilik bazasını dəyişdirməklə, ərazi iddialarından rəsmən imtina etməli və sülhə sadiqliyini hüquqi müstəvidə təsdiqləməlidir.

Ümumilikdə Azərbaycan Prezidenti ilə Ermənistan Baş naziri arasında telefon danışığı sülh prosesinin irəliləməsi, əldə edilmiş razılaşmaların möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Əsas hədəf bundan sonra siyasi razılaşmaların icrasını sürətləndirmək, regional kommunikasiyaları işə salmaq və iqtisadi əməkdaşlığı genişləndirməkdir. Vaşinqton prosesinin üstünlüklərindən biri sülhün qarşılıqlı iqtisadi maraqlara bağlanmasıdır. Dayanıqlı sülh yalnız imzalanan sənədlərlə deyil, ticarət, nəqliyyat yolları, enerji layihələri və qarşılıqlı investisiyalarla qorunur.

Tərəflərin Azərbaycan neft məhsullarının Ermənistana ixracı, tranzit yüklərin ölkəmizin ərazisindən keçməklə Ermənistana və oradan digər xarici istiqamətlərə daşınması, həmçinin Vaşinqton anlaşmalarına uyğun olaraq TRIPP (Zəngəzur dəhlizi) marşrutunun icrası kimi strateji məsələləri birbaşa müzakirə etməsi prosesin dərinliyindən xəbər verir. Bütün bunlar sülhün iqtisadi müstəvidə reallığa çevrilməsinin təzahürüdür.

Nəzərə alınmalıdır ki, Zəngəzur dəhlizinin reallaşması təkcə Azərbaycanın Naxçıvanla birbaşa bağlantısını təmin etməyəcək, eyni zamanda Ermənistanın nəqliyyat imkanlarını genişləndirərək "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri arasında yeni qovşaqlar yaradacaq. Nəticədə Cənubi Qafqaz Avrasiyanın daha böyük iqtisadi sisteminə inteqrasiya olunacaq. Bu reallıqdır ki, Ermənistan xarici tərəfdaşlarla əlaqələrini nə qədər inkişaf etdirsə də, heç bir siyasi mərkəz coğrafi reallığı dəyişə bilməz. O baxımdan, İrəvan üçün regional inteqrasiyanın yolu Bakıdan keçir.

Proseslər aydın göstərir ki, Azərbaycan Cənubi Qafqazda gündəmi formalaşdıran, nəqliyyat-enerji xətlərini birləşdirən və regional əməkdaşlığın əsas mərkəzinə çevrilən aparıcı aktordur. Regionda formalaşmış yeni iqtisadi və logistik xəritədə yer almaq istəyən tərəflər Azərbaycanın irəli sürdüyü ədalətli prinsip və şərtlərlə hesablaşmalıdır. Nikol Paşinyanın Azərbaycan Prezidentinə zəng etməsi və birbaşa dialoqa üstünlük verməsi də Ermənistan rəhbərliyinin reallıqları dərk etməsinin, Bakının müəyyənləşdirdiyi sülh və əməkdaşlıq modelini qəbullanmasının əyani göstəricisidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-Amerika əlaqələri yüksələn xətlə inkişaf edir

**8 avqust 2026-cı il Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən tarixi görüşün bir ili tamam oldu. Bir il əvvəl Ağ Evdə baş tutan görüş, eyni zamanda Azərbaycan-ABŞ əlaqələrinin inkişafında da yeni mərhələnin əsasını qoydu.**

**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında deyib ki, son illər ABŞ-Azərbaycan münasibətləri müxtəlif mərhələlərdən keçib. Xüsusilə Co Bayden administrasiyası dövründə Vaşinqtonun Azərbaycana münasibətində müşahidə olunan soyuqluq və birtərəfli yanaşmalar ikitərəfli əməkdaşlığa mənfi təsir göstərmişdi. "Bu dövrdə ABŞ administrasiyası regionda yaranmış yeni geosiyasi reallıqları tam nəzərə almayan siyasət yürüdür, Azərbaycanın ərazi bütövlüyünü təmin etməsindən sonra formalaşan vəziyyətə adekvat münasibət sərgiləmirdi. Əslində, bu yanaşmanın kökləri daha əvvələ gedib çıxırdı. Co Bayden senator olduğu dövrdə də Azərbaycana qarşı məhdudlaşdırıcı təşəbbüslərin tərəfdarlarından biri kimi çıxış etmişdi. Prezidentliyi dövründə isə onun administrasiyasının Cənubi Qafqaza baxışı daha çox qarşıdurma və geosiyasi rəqabət prizmasından formalaşmışdı. Bu isə regionda uzunmüddətli sülhün və əməkdaşlığın bərqərar olmasına xidmət etmirdi",- deyə o əlavə edib.



Deputat qeyd edib ki, Donald Trampın yenidən ABŞ Prezidenti seçilməsi ilə Vaşinqtonun xarici siyasətində fərqli yanaşma müşahidə olundu. Prezident İlham Əliyevin də vurğuladığı kimi, yeni administrasiya beynəlxalq münasibətlərdə qarşıdurmadan daha çox dialoq və əməkdaşlıq xəttinə üstünlük verməyə başladı.

K.Nurullayeva vurğulayıb ki, Vaşinqton görüşünün ən mühüm nəticələrindən biri Azərbaycan və Ermənistan arasında sülh sazişinin razılaşdırılmış mətninin paraflanması, regionda kommunikasiyaların açılması istiqamətində siyasi iradənin nümayiş etdirilməsi və ATƏT-in Minsk prosesi ilə bağlı yeni yanaşmanın ortaya qoyulması oldu: "Tərəflərin imzaladığı Birgə Bəyannamə Cənubi Qafqazda postmünaqişə dövrünün siyasi çərçivəsini müəyyənləşdirən mühüm sənəddir. Bu görüş Azərbaycan-ABŞ münasibətlərinin də yeni mərhələyə keçidini sürətləndirdi. Prezident İlham Əliyevin bu tarixi görüşdən sonra Vaşinqtonda yerli telekanallara verdiyi müsahibədə qeyd etdiyi kimi, iki ölkə arasında əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi açıldı. Bu çərçivədə Strateji Tərəfdaşlığa dair Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması barədə razılıq əldə olundu ki, bu da münasibətlərin institusional əsasda inkişafına xidmət edən mühüm addım idi. Xartiyanın hazırlanması üzrə Strateji İşçi Qrupunun yaradılması gələcək əməkdaşlığın istiqamətlərini - investisiya, enerji, nəqliyyat, kommunikasiya, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və digər sahələri əhatə edir. Beləliklə, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli ön plana çıxdı və münasibətlərdə praqmatik yanaşma gücləndi. Terrorizmlə mübarizə, sərhəd təhlükəsizliyi, kibertəhlükəsizlik və regional sabitlik məsələləri üzrə əməkdaşlıq davam etdirildi. Azərbaycan regionun təhlükəsizliyinə töhfə verən etibarlı tərəfdaş kimi qiymətləndirildi".

Deputat bildirib ki, Vaşinqton görüşündən sonra Amerika biznes dairələrinin Azərbaycana marağı artıb. Son bir il ərzində müşahidə olunan dinamika göstərir ki, Vaşinqton görüşü Azərbaycan-Amerika əlaqələrində yeni siyasi atmosfer formalaşdırıb. Enerji təhlükəsizliyi, regional sabitlik, nəqliyyat-logistika layihələri, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələləri üzrə dialoq daha intensiv xarakter alıb. ABŞ Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallığı qəbul edən və regionun gələcəyini bu reallıq üzərində qurmağa çalışan əsas beynəlxalq aktorlardan biri kimi çıxış etməyə başlayıb. Azərbaycan da öz növbəsində ABŞ ilə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığı inkişaf etdirməyə üstünlük verir. Rəsmi Bakı göstərdi ki, müxtəlif güc mərkəzləri ilə konstruktiv münasibətlər qurmaq Azərbaycanın milli maraqlarına xidmət edən strateji seçimdir.

K.Nurullayeva qeyd edib ki, Vaşinqton görüşünün daha bir mühüm nəticəsi Azərbaycanın beynəlxalq nüfuzunun artması olub: "Dünyanın ən böyük siyasi mərkəzlərindən biri olan Ağ Evdə sülh prosesinin əsas iştirakçısı kimi çıxış etməsi Azərbaycanın regionun aparıcı siyasi aktoru statusunu bir daha təsdiqlədi. Bu, həm də rəsmi Bakının son illərdə həyata keçirdiyi müstəqil və praqmatik xarici siyasətin məntiqi nəticəsi idi. Son bir il ərzində dialoqun intensivləşməsi qarşılıqlı maraqların daha aydın şəkildə uzlaşdığını göstərir. Mövcud geosiyasi şərait fonunda Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişaf perspektivləri kifayət qədər geniş görünür. Xüsusilə enerji təhlükəsizliyi, Orta dəhlizin inkişafı, rəqəmsal iqtisadiyyat, investisiyalar və regional təhlükəsizlik sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli imkanlar mövcuddur. Vaşinqton görüşü sübut etdi ki, güclü siyasi iradə və qarşılıqlı hörmət əsasında qurulan diplomatiya regional problemləri həll etməklə yanaşı, dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə də xidmət edə bilir".

Deputat sonda vurğulayıb ki, son bir ilin mənzərəsi də Azərbaycan-ABŞ münasibətlərində əsas tendensiyanın strateji dialoq, qarşılıqlı etimad və praktiki əməkdaşlığın genişlənməsi istiqamətində davam etdiyini göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Tarixi dönüş nöqtəsi:* Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələ və Cənubi Qafqazda dayanıqlı sülhün zəfəri

## Diplomatik tərəqqinin zirvəsi və lider qətiyyəti



**XXI əsrin mürəkkəb geostrateji kataklizmləri fonunda Cənubi Qafqaz uzun illər boyu güc mərkəzlərinin toqquşduğu, münaqişələrin dondurulduğu və regional inteqrasiya imkanlarının ziddiyyətli maraqlara qurban verildiyi həssas bir məkan kimi xarakterizə olunub.**

Keçmişdən miras qalmış status-kvo və beynəlxalq hüququn ikili standartlar tələsinə salınması yalnız bölgə xalqlarının təhlükəsizliyini təhdid etmir, həm də Avrasiyanın nəqliyyat-logistika xəritəsinin tam potensialı ilə çalışmasına ciddi maneələr yaradırdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi konseptual xarici siyasət kursu, milli maraqlara söykənən sarsılmaz mövqe və qətiyyətli liderlik fenomeni Cənubi Qafqazın tarixi taleyini kökündən dəyişdirdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizin ölkə miqyasında tam təmin edilməsi təkcə ərazi bütövlüyümüzün bərpası deyil, eyni zamanda bütün Avrasiya məkanı üçün yeni bir geostrateji reallığın təməl daşı oldu. Azərbaycan müharibəni qalibiyyətlə bitirməklə yanaşı, regiona əbədi sülhü, sabitliyi və tərəqqini gətirən əsas nizamlayıcı qüvvəyə çevrildi.

Bu gün biz həmin "dəmir yumruq" doktrinasının məntiqi davamı olan böyük siyasi və iqtisadi zəfərlərin şahidi oluruq. Avqustun 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev arasında baş tutan və 40 dəqiqədən çox davam edən səmimi, dostluq şəraitindəki telefon danışığı, eləcə də dövlətimizin başçısının ABŞ liderinə ünvanladığı rəsmi məktub iki dövlət arasındakı münasibətlərin tarixi zirvəyə yüksəldiyini tam çılpaqlığı ilə ortaya qoydu.

Bu diplomatik təmas sıradan bir protokol mübadiləsi deyil, iki böyük liderin Cənubi Qafqazın gələcəyinə, qlobal iqtisadi inteqrasiyaya və strateji tərəfdaşlığa verdikləri ali dəyərin, qarşılıqlı etimadın və yüksək siyasi iradənin təcəssümüdür. 8 avqust 2025-ci ildə Vaşinqtonda imzalanmış tarixi Sülh Sammitinin birinci ildönümünə təsadüf edən bu zəng göstərir ki, Azərbaycan artıq nəinki öz regionunun geosiyasi gündəliyini diktə edir, həm də qlobal miqyasda qərarların qəbul olunduğu ali masaların ən etibarlı və əvəzolunmaz iştirakçısına çevrilibdir.

### Vaşinqton Sülh Sammitinin təntənəsi: onilliklərin münaqişəsindən əbədi sabitliyə

Prezident İlham Əliyevin Donald Trampa göndərdiyi rəsmi məktubda xüsusi publisistik incəlik və diplomatik dəqiqliklə vurğulandığı kimi, keçən il Vaşinqtonda keçirilən Zirvə görüşü Cənubi Qafqazın çoxəsrlik tarixində dönüş nöqtəsi rolunu oynadı. Otuz ilə yaxın bir dövrdə regionu gərginlik və qeyri-müəyyənlik içində saxlayan münaqişə məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yenilməz iradəsi və ABŞ Prezidenti Donald Trampın qətiyyətli vasitəçilik yanaşması sayəsində birdəfəlik aradan qaldırıldı.

Vaşinqton Sülh Sammiti yalnız beynəlxalq sənədlərin imzalanması prosesi olmadı. Bu sammit sülhün kağız üzərində deyil, birbaşa regionda iqtisadi və sosial həyatda real nəticələrə çevrilməsi mexanizmini işə saldı, sülhün və təhlükəsizliyin dönməz xarakter almasını təmin etdi. Bu proses sonrakı mərhələdə daha da inkişaf etdi. 2026-cı il fevralın 10-da Azərbaycan və ABŞ hökumətləri arasında Strateji Tərəfdaşlıq Xartiyası yayımlandı.

Prezident İlham Əliyev məktubunda bir daha xatırlatdı ki, üç onillik münaqişəyə nöqtə qoyulması region xalqlarının təhlükəsiz gələcəyini sığortalamaqla yanaşı, uzun illər ləngimiş geoiqtisadi potensialın da tam gücü ilə fəaliyyət göstərməsinə yaşıl işıq yandırdı.

Bu tarixi prosesin ən mühüm və qürurverici tərəflərindən biri də ABŞ-nin "Azadlığa Dəstək Aktı"na dair diskriminasiya xarakterli 907-ci düzəlişin qüvvəsinin dondurulması oldu. 1992-ci ildə erməni lobbisinin təsiri altında qəbul edilən və işğala məruz qalan Azərbaycanı haqsız yerə cəzalandırmağa yönəlmiş bu bədnam düzəliş uzun illər boyunca iki ölkə arasındakı münasibətlərə kölgə salırdı. Donald Trampın ədalətli və cəsarətli addımı sayəsində bu düzəlişin dondurulması, faktiki olaraq, tarixi ədalətin tam bərpası kimi qiymətləndirilməlidir.

Bu addım Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı qarşılıqlı inamı ən yüksək həddə çatdırdı, tərəfdaşlığın önündəki psixoloji və hüquqi maneələri dəf etdi. Hazırda iki ölkə arasındakı münasibətlər müstəqillik tariximizin ən parlaq, ən konstruktiv və müttəfiqlik səviyyəsinə yaxınlaşan yüksək mərhələsini yaşayır. Bu münasibətlər artıq kənar müdaxilələrdən, ikili standartlardan və üçüncü tərəflərin təsirindən azad olaraq, qarşılıqlı hörmət, sırf dövlət maraqları və qlobal sabitlik prinsiplərinə söykənir.

### TRIPP layihəsi və regionun iqtisadi yenidənqurulması: Zəngəzur dəhlizindən Qlobal Logistika Qovşağınadək

Prezidentlər arasında baş tutan telefon danışığının ən strateji və mərkəzi mövzularından birini regional və qlobal iqtisadiyyatın gələcəyini formalaşdıracaq yeni nəqliyyat və logistika layihələri təşkil etdi. Xüsusilə müəllifi və təşəbbüskarı Donald Tramp olan "Trump Route for International Peace and Prosperity" (TRIPP) nəqliyyat dəhlizi layihəsi Cənubi Qafqazın iqtisadi xəritəsini, eyni zamanda "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının arxitekturasını kökündən dəyişməyə qadirdir.

TRIPP layihəsi sadəcə yüklərin bir nöqtədən digərinə daşınmasını nəzərdə tutan standart nəqliyyat xətti deyil; o, sülhün, təhlükəsizliyin və birgə tərəqqinin iqtisadi zəmanətçisidir. Azərbaycan dövləti özünün çoxşaxəli tranzit infrastrukturu ilə bu layihənin mərkəzində dayanır. Söhbət zamanı Prezident İlham Əliyevin xüsusi qürurla diqqətə çatdırdığı kimi, Azərbaycan öz ərazisindəki bütün infrastruktur işlərini - müasir avtomobil magistrallarını, yüksəksürətli dəmir yollarını və beynəlxalq logistika mərkəzlərini artıq bitirmək üzrədir.

Ölkəmiz layihənin operativ şəkildə fəaliyyətə başlaması üçün bütün texniki və təşkilati öhdəliklərini tam yerinə yetirib. Eyni zamanda Ermənistan ərazisində də müvafiq işlərin ləngimədən başlanacağına dair ifadə olunan ümidlər göstərir ki, Azərbaycan regionun tam inteqrasiyası və sülhün möhkəmlənməsi üçün konstruktiv addımlar atmaqda davam edir.

İqtisadi diplomatiyanın ən diqqətçəkən nəticələrindən biri də Azərbaycanın neft məhsullarının Ermənistana ixracının başlanması, tranzit yüklərin hərəkətinə maneələrin aradan qaldırılması və iki ölkə arasında birbaşa ticarət əlaqələrinin təməlinin qoyulmasıdır. İllərlə davam edən qarşıdurma və təcrid siyasətinin yerini qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa verməsi Azərbaycanın sülhməramlı strategiyasının parlaq təntənəsidir.

Ölkəmizin enerji resursları və logistik imkanları regionda sabitliyin ən etibarlı lövbərinə çevrilir. İqtisadi asılılıq və ticarət dövriyyəsinin artması qarşılıqlı etimadı dərinləşdirir, revanşist meyillərin qarşısını alır və Cənubi Qafqazı qlobal investisiyalar üçün cazibədar məkana çevirir.

### Strateji tərəfdaşlığın qlobal bəhrələri və G20 dəvətinin tarixi mənası

Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması təkcə regional proseslərlə məhdudlaşmır, eyni zamanda qlobal miqyasda böyük əks-səda doğurur. İki dövlət arasında imzalanmış Strateji Tərəfdaşlıq sənədi münasibətlərin institusional təməlini daha da möhkəmləndirib. Bu tərəfdaşlıq enerjidən kibertəhlükəsizliyə, terrorizmlə mübarizədən rəqəmsal ticarətə və "yaşıl keçidə" qədər geniş bir spektrdə birgə fəaliyyəti nəzərdə tutur.

Bu kontekstdə telefon danışığı zamanı xüsusi vurğulanan və xalqımızda böyük qürur hissi doğuran ən mühüm hadisə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi G20 Sammitinə xüsusi qonaq və strateji tərəfdaş kimi dəvət etməsidir. Dünyanın ən nəhəng 20 iqtisadiyyatını və qlobal siyasi güclərini bir araya gətirən G20 platformasına Azərbaycanın dəvət olunması tarixi bir nailiyyətdir.

Bu dəvəti bir neçə mühüm müstəvidə qiymətləndirmək lazımdır:

İlk növbədə, bu, Azərbaycanın durmadan artan iqtisadi qüdrətinin, maliyyə müstəqilliyinin və regional layihələrin drayveri kimi rolunun qlobal miqyasda rəsmən etiraf edilməsidir. Azərbaycan artıq yardım alan və ya sadəcə qərarları izləyən ölkə deyil, qlobal iqtisadi arxitekturanın formalaşmasında fəal iştirak edən, enerji təhlükəsizliyini təmin edən aparıcı aktordur.

İkincisi, bu dəvət Prezident İlham Əliyevin şəxsi beynəlxalq nüfuzuna, onun müdrik dövlət xadimi kimi qlobal liderlər tərəfindən qəbul olunan xarizmasına verilən ali dəyərdir. Qlobal iqtisadiyyatın və siyasətin gələcəyinin müəyyən edildiyi bu mötəbər sammitdə Azərbaycan Prezidentinin iştirakı ölkəmizin səsini dünya ictimaiyyətinə daha uca çatdıracaqdır.

Prezident İlham Əliyevin bu ali dəvətə görə ABŞ liderinə dərin təşəkkürünü bildirməsi tərəflər arasındakı qarşılıqlı hörmətin, səmimiyyətin və yüksəksəviyyəli diplomatik mədəniyyətin növbəti təzahürüdür. Bu tərəfdaşlıq göstərir ki, Azərbaycan ilə ABŞ arasındakı münasibətlər artıq situasiya xarakterli deyil, uzunmüddətli və geostrateji mahiyyət kəsb edir.

### Gələcəyə baxış: sabitlik, tərəqqi və yeni perspektivlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ABŞ Prezidenti Donald Tramp arasında baş tutan bu tarixi telefon danışığı və ünvanlanan məktub Azərbaycanın xarici siyasətində əldə olunmuş növbəti böyük zəfərin təcəssümüdür. Bu diplomatik nailiyyətlər təsadüfi deyil; onlar illər boyu səbirlə, dəqiqliklə və uzaqgörənliklə həyata keçirilən milli mənafe siyasətinin, güclü iqtisadiyyatın və qüdrətli ordunun yaratdığı möhkəm təməl üzərində ucalır.

Ölkə ictimaiyyəti müşahidə edir ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan xarici siyasətdə tam müstəqil, prinsipial və milli maraqları hər şeydən üstün tutan bir xətt tutub. Bu gün Cənubi Qafqazda formalaşan yeni sülh arxitekturası, bərpaolunan tranzit marşrutları və beynəlxalq aləmdə qazanılan misilsiz nüfuz məhz bu müdrik strategiyanın bəhrələridir.

8 avqust tarixi Azərbaycan-ABŞ münasibətlərində sadəcə yeni bir səhifə açmadı, eyni zamanda ölkəmizin qlobal siyasi arenadakı yerini daha da sarsılmaz etdi. Biz əminik ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən bu uğurlu xarici və daxili siyasət kursu bundan sonra da dövlətimizin suverenliyini, iqtisadi yüksəlişini və beynəlxalq nüfuzunu daha uca zirvələrə daşıyacaq, Cənubi Qafqazda əbədi sülhün və tərəqqinin zəmanəti olacaqdır.

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

# Cənubi Qafqazda uzunmüddətli sülh və iqtisadi inteqrasiyanın başlanğıcı

**2025-ci ilin avqust ayında Prezident İlham Əliyevin Vaşinqton şəhərinə işgüzar səfəri çərçivəsində başlanan Vaşinqton prosesi Bakının təqdim etdiyi yol xəritəsi əsasında Cənubi Qafqazda geostrateji balansı köklü şəkildə dəyişən və regional təhlükəsizlik arxitekturasını yenidən şəkilləndirən tarixi dönüş nöqtəsi oldu.**

Azərbaycanın hərbi müstəvidə əldə etdiyi üstünlüyü beynəlxalq səviyyədə rəsmiləşdirərək Bakının Avrasiya məkanında əsas geosiyasi aktor və logistik mərkəz kimi mövqeyini daha da möhkəmləndirən bu təmaslar sülh prosesində həm də ABŞ-nin iştirakçı rolunu rəsmiləşdirməklə, regionda kənar geostrateji təsir balansını yeni, maraqların uyğunlaşdırıldığı mərhələyə daşıdı. Azərbaycan və Ermənistan arasında ərazi bütövlüyünün qarşılıqlı tanınması və sülh müqaviləsinin baza prinsiplərinin rəsmiləşdirilməsi ilə dekadalarla davam edən münaqişə səhifəsi hüquqi və siyasi müstəvidə de-fakto qapandı. Eyni zamanda regional kommunikasiyaların açılması Orta dəhliz çərçivəsində "Şərq-Qərb" tranzit marşrutlarının beynəlxalq təhlükəsizlik zəmanəti almasını və qlobal təchizat zəncirində geoiqtisadi çəkisinin artmasını təmin etdi.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Vaşinqton şəhərində Prezident Donald Trampın şahidliyi ilə imzaladığı Birgə Bəyannamənin və dövlət başçısının Azərbaycan mediasına verdiyi müsahibənin məzmunu da ilk dövrdən Cənubi Qafqazın geopolitik arxitekturasında və Azərbaycan-ABŞ ikitərəfli münasibətlərində tam fərqli dövr başladığını deməyə əsas verdi: "Həqiqətən də, iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması, 1992-ci ildən bəri tətbiq edilən ədalətsiz 907-ci düzəlişin qüvvəsinin ABŞ Prezidenti tərəfindən təntənəli formada növbəti dəfə "waiver" mexanizmi üzrə dayandırılması və Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin razılaşdırılmış mətninin xarici işlər nazirləri səviyyəsində paraflanması regionda onilliklər boyu davam edən münaqişə səhifəsinin hüquqi və siyasi müstəvidə qapanmasının bariz göstəricisidir. Təsadüfi deyil ki, dövlət başçısı elə Vaşinqtonda yerli mediaya müsahibəsində bu tarixi hadisəni yüksək qiymətləndirərək vurğulayıb ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Paraflanma aktı diplomatik masada uzun illər aparılan mürəkkəb danışıqların başa çatdığını, tərəflərin artıq mətnə hər hansı birtərəfli düzəliş və ya redaktə təklif etmək hüququndan məhrum olduğunu rəsmiləşdirir. Bu razılaşdırılmış mətni müstəsna edən əsas şərtlər və sənədin mahiyyəti birbaşa Azərbaycanın müəyyənləşdirdiyi baza prinsiplərinə dayanır. Sənəddə BMT Nizamnaməsinə və 1991-ci il Almatı Bəyannaməsinə istinad olunması suverenlik, ərazi bütövlüyü, beynəlxalq "uti possidetis juris" - sərhədlərin toxunulmazlığı prinsipi və "non-use of force" - güc tətbiq etməmək kimi beynəlxalq hüququn imperativ "jus cogens" normalarının dövlətlərarası münasibətlərin təməli kimi götürüldüyünü təsdiqləyir".

Deputat qeyd edib ki, keçmiş münaqişənin və ərazi iddialarının bir daha təftiş olunmayacağının və revanşizm cəhdlərinin qətiyyətlə rədd edildiyinin təsbit edilməsi gələcəkdə yarana biləcək hüquqi-siyasi riskləri tamamilə aradan qaldırır və "status quo ante" rejiminin bərpasını imkansız edir. Beləliklə, Ermənistanın onilliklər boyu irəli sürdüyü qeyri-real iddialar və xarici havadarların vasitəçilik adı altında prosesi uzatmaq cəhdləri iflasa uğrayıb, sazişin mətni sırf iki dövlətin suveren bərabərliyi təməlində formalaşıb. Bu mənada sənədin paraflanması Azərbaycan diplomatiyasının və Prezident İlham Əliyevin qətiyyətinin və siyasi iradəsinin növbəti böyük zəfərinin təcəssümüdür. Çünki Azərbaycan təkcə hərbi qələbələri əsasında formalaşan müstəviyə söykənməklə deyil, həm də güclü hüquqi arqumentlərlə öz şərtlərini qarşı tərəfə və beynəlxalq birliyə qəbul etdirib. Bununla uzun illər ərzində Azərbaycanı barışmaz tərəf kimi qələmə verməyə çalışan erməni lobbisinin və geostrateji manipulyasiya edən qüvvələrin tezisləri tamamilə darmadağın olunub.

Sənədin məhz Vaşinqtonda, ABŞ Prezidentinin şahidliyi ilə paraflanması rəsmi Bakının irəli sürdüyü 5 əsas prinsip daxilində sülh gündəliyinin qlobal miqyasda qəbul olunduğunu və legitimliyinin ən ali səviyyədə təsdiqləndiyini nümayiş etdirir. Bu, Azərbaycanın öz gücü hesabına yaratdığı hərbi-siyasi reallığın diplomatik masada tam və şərtləndirilməz qələbəsidir.

B.Məhərrəmov bildirib ki, bu prosesin ən mühüm hüquqi və institusional nəticələrindən biri də 1992-ci ildən bəri fəaliyyət göstərən və artıq funksionallığını tamamilə itirmiş ATƏT-in Minsk qrupunun və onunla əlaqəli strukturlarının de-yure ləğvi üçün ATƏT-ə birgə müraciətin edilməsi oldu: "Bu addım regional münaqişənin "dondurulmuş" statusunu aradan qaldıraraq postmünaqişə reallıqlarını beynəlxalq institutlar səviyyəsində rəsmiləşdirdi. Regionda nəqliyyat və kommunikasiya xətlərinin açılması üzrə razılaşmalar, xüsusilə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas ərazisi arasında maneəsiz bağlantının təmin edilməsi və Ermənistan ərazisindən keçəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsi dövlətlərin suverenliyi, ərazi bütövlüyü və milli yurisdiksiyası prinsiplərinə söykənərək Orta dəhlizin strateji əhəmiyyətini artırdı. Siyasi və geopolitik nöqteyi-nəzərdən isə Vaşinqton sammiti Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni strateji mərhələyə çıxardı. Əslində, Azərbaycan müstəqilliyinin ilk illərindən, xüsusən Ümummilli Lider Heydər Əliyevin dövründən Amerika Birləşmiş Ştatları ilə məhz bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı hörmət və suverenliyə riayət müstəvisində münasibətlər qurmağı arzulayırdı. Ulu Öndər məhz "par in parem non habet imperium" formatında - sağlam və praqmatik tərəfdaşlığın tərəfdarı idi. Lakin ötən dövr ərzində böyük güclər, xüsusən Cənubi Qafqazda qeyri-praqmatik, imperialist məqsədlər güdən dairələr və Bayden-Blinken cütlüyünün iqtidarı zamanı ABŞ administrasiyası təzyiq və diktə dili ilə prosesləri idarə etməyə çalışırdılar. Təsadüfi deyil ki, cənab İlham Əliyev özü də bu dövrü kəskin tənqid edərək bildirmişdi ki, əvvəlki administrasiya dövründəki dörd ili itirilmiş illər kimi qiymətləndirir. "Əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi". Həqiqətən, həmin dövrdə adıçəkilən dairələr regionda davamlı sülh və sabitliyin yaranmasına öz geostrateji maraqlarına təhdid kimi yanaşır, Ermənistandakı revanşist qüvvələri təhrik edərək işğalçı və separatçı meyillərin saxlanılmasına zəmin yaradırdılar. Lakin cənab İlham Əliyevin Vaşinqton təmasları və imzalanan tarixi sənədlərlə böyük güclərin bu təzyiq siyasətinə və geosiyasi manipulyasiyalarına kökündən son qoyuldu".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev bütün bu mənfi prosesləri tam tərsinə çevirərək Cənubi Qafqazda Azərbaycanın arzuladığı, Ulu Öndərin əsasını qoyduğu ideallara söykənən tamamilə yeni konfiqurasiya yaratdı. ABŞ Prezidenti Donald Trampın praqmatik və realpolitik yanaşması ilə əvvəlki administrasiyanın ədalətsiz siyasətindən imtina edildi, 907-ci düzəlişin qüvvəsi məhz oval kabinetdə dayandırıldı. Dövlət başçısı da müsahibəsində 907-ci düzəlişin ləğvini və strateji əməkdaşlıq formatına başlanılmasını "tarixi hadisə" adlandıraraq Donald Trampın bu rəmzi jestinin Azərbaycan üçün çox dərin mənası olduğunu xüsusi vurğuladı: "Bu, artıq ədalətsizliyin aradan qalxdığını göstərir". ABŞ ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair razılıqdan qısa müddət keçdikdən sonra buna uyğun olaraq qrafikdə heç bir gecikmə olmadan ABŞ-nin vitse-prezidenti Cey Di Vensin Azərbaycana rəsmi səfəri və strateji müttəfiqlik istiqamətində real, icraolunan sənədlərin imzalanması isə prosesin formal mahiyyət daşımadığını sübut etdi. Bu fakt aydın şəkildə nümayiş etdirir ki, Prezident İlham Əliyev elə sarsılmaz və cəlbedici bir geosiyasi, geoiqtisadi reallıq yaradıb ki, Vaşinqton artıq bu yeni reallıqda Azərbaycanın real imkanlarını, regional potensialını və strateji çəkisini tamamilə doğru qiymətləndirməyə başlayıb. Yüksəksəviyyəli səfərlərin ləngimədən və nəzərdə tutulmuş cədvələ dəqiq riayət edilməsidir. Trampın bəyanatları və davamlı təqdir mesajları göstərir ki, Birləşmiş Ştatlar Azərbaycanı yalnız Cənubi Qafqazın lider dövləti kimi deyil, həm də Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər uzanan nəhəng coğrafiyada sülhün, sabitliyin və transmilli layihələrin təminatçısı olan qlobal miqyaslı tərəfdaş kimi qəbul edir. Prezident İlham Əliyevin yaratdığı yeni reallıq iki ölkə arasındakı münasibətləri yerli və lokal çərçivədən çıxararaq qlobal siyasətin mərkəzi gündəliyinə daşımış, Azərbaycanı ABŞ-nin Yaxın Şərq və Avrasiya siyasətində əvəzolunmaz strateji tərəfdaşına çevirmişdir", - deyə deputat əlavə edib.

B.Məhərrəmov qeyd edib ki, Vaşinqton görüşlərinin böyük diplomatik zəfər sayılmasının ən mühüm səbəblərindən biri də erməni lobbisinin ABŞ-Azərbaycan münasibətləri üzərindəki uzunmüddətli mənfi təsirinin tamamilə puç edilməsidir. İllərlə erməni lobbisi və onun təsiri altında olan siyasi dairələr Vaşinqtonla Bakı arasında sağlam təməllərə söykənən əlaqələrin qurulmasına süni maneələr yaradırdılar. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müsahibəsində də bu tarixi haqsızlığa toxunaraq xatırladıb ki, 1992-ci ildə 907-ci düzəliş qəbul edilərkən konqres üzvləri erməni lobbi qruplarının təsiri altına düşüb Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Dövlət başçısı Prezident Donald Trampla keçirdiyi birbaşa və səmimi təmaslarla sübut etdi ki, Azərbaycan Cənubi Qafqazda real siyasi-hərbi vəziyyəti öz gücü hesabına dəyişdiyi kimi, Vaşinqtonla münasibətləri də erməni lobbisinin təsir imkanlarından azad edərək tamamilə beynəlxalq hüquqa və milli maraqlara uyğun şəkildə nizamlamağa nail olub. Məhz bu çərçivədə Prezident İlham Əliyev Donald Trampla görüşünü yüksək qiymətləndirərək onun Azərbaycanın rolunu, geosiyasi əhəmiyyətini dərindən bilməsini çox önəmli amil adlandırmışdı.



Deputat deyib ki, Vaşinqton görüşü və imzalanan tarixi sənədlər eyni zamanda həm də Azərbaycan dövlətinin tam müstəqil iradəsinin, sarsılmaz suveren imkanlarının və sərbəst qərarvermə gücünün əyani təcəssümüdür: "Sovereign equality" prinsipini təmin etmiş cənab İlham Əliyev tarixin heç bir dövründə müşahidə etmədiyimiz elə formata nail olub ki, bu gün faktiki dünyada heç bir xarici güc mərkəzi Azərbaycana digər dövlətlərlə münasibətlərinin istiqamətini diktə edə və daxili işlərinə müdaxilə edə bilməz. Bu situasiya isə tarixin təbii axarının Azərbaycana töhfəsi yox, Prezident İlham Əliyevin vizyonunun uğurudur. Dövlət başçımızın da ifadə etdiyi kimi: "Bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik". Bu qətiyyətli mövqe Azərbaycanın qlobal arenada müstəqil qərar verən, öz gələcəyini özü təyin edən və beynəlxalq hüququn tamhüquqlu subyekti kimi çıxış edən qüdrətli bir dövlət olduğunu birdəfəlik sübuta yetirib".

Bəhruz Məhərrəmov vurğulayıb ki, 8 avqust razılaşmaları ilə bərqərar olan yeni reallıq Azərbaycanın həm regional, həm də qlobal müstəvidə artan geosiyasi çəkisini mahiyyətcə yeni bir mərhələyə yüksəldir. Azərbaycan artıq təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının əsas nəqliyyat, logistika və energetika qovşaqlarından birinə çevrilərək öz gündəliyini beynəlxalq aləmə qəbul etdirən strateji aktora çevrilib. Vətən müharibəsində BMT Nizamnaməsinin özünümüdafiə hüququnu ehtiva edən 51-ci maddəsinə uyğun olaraq və lokal antiterror tədbirlərində əldə olunan tarixi zəfərin Vaşinqtonda ən yüksək səviyyədə hüquqi və siyasi baxımdan təsbit edilməsi rəsmi Bakının təkcə hərbi güclə deyil, dərin diplomatik strategiya ilə regionun gələcək taleyini müəyyən etdiyini göstərir. Tramp administrasiyasının vasitəçiliyi ilə ABŞ-nin birbaşa dəstək verdiyi TRIPP layihəsi və Trans-Xəzər nəqliyyat marşrutunun inkişafı Azərbaycanın Şərq və Qərb, eləcə də Şimal və Cənub arasında əvəzolunmaz körpü rolunu daha da möhkəmləndirir. "Tarixi və siyasi baxımdan bütün bu nailiyyətlərin mərkəzində isə əvvəldə də qeyd etdiyimiz kimi, cənab İlham Əliyevin məhz yeni reallığın yaradıcısı kimi çıxış etməsi dayanır. Ən azı son 23 illik tarixi gedişat göstərir ki, dövlətimizin başçısı onilliklər boyu beynəlxalq güclərin Cənubi Qafqaza diktə etdiyi samitsiz, nəticəsiz və status-kvo uzadıcı strategiyaları kökündən sarsıdaraq, öz müstəqil hərbi-siyasi iradəsi ilə yeni şərtlər diktə edən nadir lider olaraq hərbi zəfərimizi Vaşinqton masasında beynəlxalq diplomatiyanın standartına çevirib, Cənubi Qafqazın suverenliyinə və ərazi bütövlüyünə söykənən tamamilə yeni geosiyasi nizam formalaşdırıb. Prezident İlham Əliyevin formalaşdırdığı bu yeni geoiqtisadi və geosiyasi reallıq elə sarsılmaz və dönməz xarakter daşıyır ki, bundan sonra beynəlxalq güc mərkəzləri proseslərin gedişatını və yaradılmış konfiqurasiyanı istəsələr belə dəyişdirə bilməzlər. Dövlət başçısının reallaşdırdığı nəhəng energetika və logistika layihələri, açılan transmilli kommunikasiyalar və Azərbaycanın beynəlxalq nəqliyyat habına çevrilməsi faktı regionun taleyini birbaşa qlobal iqtisadiyyatın damarlarına bağlayıb. Artıq mövcud konfiqurasiyanı pozmaq dünya güclərinin birbaşa iqtisadi maraqlarına ağır zərbə vurmaq, yaxud şübhə altına almaq deməkdir. Bu səbəbdən gələcəkdə qlobal siyasət hansı istiqamətdə inkişaf edir-etsin, Azərbaycanın milli maraqları formalaşan hər bir yeni konfiqurasiyada "pacta sunt servanda" prinsipinə uyğun olaraq həmişə ən ali səviyyədə təmin olunacaq və qorunacaq. Hətta Amerika Birləşmiş Ştatları da özünün transmilli iqtisadi və təhlükəsizlik maraqlarının uzlaşması naminə rəsmi Bakının müəyyənləşdirdiyi bu nizamın qorunmasında maraqlı tərəf kimi çıxış edir", - deyə o bildirib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində başqa bir istiqamət - Azərbaycan və Ermənistan arasında nəqliyyat və kommunikasiya xətlərinin açılması sahəsində keyfiyyətcə həlledici və tarixi bir dövr başlayıb. Onilliklər boyu blokada şəraitində saxlanılan kommunikasiya infrastrukturlarının bərpası məhz rəsmi Bakının diktə etdiyi prinsiplər - suverenlik, ərazi bütövlüyü və milli yurisdiksiyası çərçivəsində real müstəviyə keçib. Vaşinqton Bəyannaməsində təsbit olunan TRIPP proqramı da göstərir ki, Azərbaycan lideri bütövlükdə Avrasiya qitəsinin ticarət və logistika xəritəsini yenidən çəkir. 8 avqust Vaşinqton sənədinin imzalanması, eyni zamanda, BMT Nizamnaməsinin əsas prinsiplərinə uyğun olaraq beynəlxalq sülhün və dövlətlərarası dostluq münasibətlərinin təşviq edilməsi fonunda qlobal diplomatik sistem üçün müstəsna əhəmiyyət kəsb edir. BMT Nizamnaməsində təsbit olunmuş münaqişələrin dinc yolla həlli, suveren bərabərlik və ərazi bütövlüyünə hörmət prinsipləri Cənubi Qafqazda real sülhün hüquqi sütununa çevrilib. Prezident İlham Əliyevin həyata keçirdiyi sülh missiyası BMT-nin sülhyaratma konsepsiyalarının Cənubi Qafqazda ən uğurlu tətbiq modelidir. Daha ümumiləşdirilmiş formada desək, Vaşinqton Zirvəsi Azərbaycanın qazandığı böyük hərbi-siyasi zəfərlərin məntiqi davamı kimi məhz Prezident İlham Əliyevin sarsılmaz iradəsi və prinsipial mövqeyi sayəsində ölkəmizin qazandığı tarixi üstünlüyü diplomatik masada tam qələbəyə çevirən platforma oldu.

B.Məhərrəmov bildirib ki, dövlət başçısı da məhz bu reallıqları ümumiləşdirərək 8 avqust görüşünü dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab etdiyini, bunun bütün regiona çox müsbət təsir göstərəcəyini bəyan etmişdi: "Bu gün Azərbaycan ilə Ermənistan arasında baş verənlər Cənubi Qafqazda sülh, sabitlik və firavanlıq istəyənlərin hamısı üçün, bütün region üçün çox əhəmiyyətli olacaqdır". Görünən odur ki, məhz Vaşinqtonda imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar Azərbaycanın yaratdığı yeni reallıqların beynəlxalq diplomatik müstəvidə tam təsbit olunmasını təmin edərək Cənubi Qafqazda uzunmüddətli sülh, sabitlik və iqtisadi inteqrasiya dövrünü başladıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Azərbaycan-Qırğızıstan tərəfdaşlığı regional inteqrasiyanın dərinləşməsinə mühüm töhfə verir"

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri və Qırğız Respublikasının Prezidenti cənab Sadır Japarov ilə görüşü iki ölkənin ortaq tarixi-mədəni köklər üzərində yüksələn qardaşlıq münasibətlərini bir daha nümayiş etdirdi.**



Azərbaycan Prezidentinin Qırğızıstana səfəri eyni zamanda ölkəmizin türk dünyasının mənəvi birliyinə, inteqrasiyasına verdiyi önəmin və güclü dəstəyin növbəti vacib təzahürüdür.

Dövlət səfərində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirak etməsi də xüsusi əhəmiyyət daşıyır. Bu, Azərbaycan ilə Qırğızıstanın mədəni-humanitar əməkdaşlığının möhkəmləndirilməsinə, xalqlarımızın qədim ənənələrinin yaşadılmasına dövlətimizin xüsusi münasibətini əks etdirir".

Bu sözləri **Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay ƏFƏNDİYEVA** qəzetimizə açıqlamasında deyib.

Millət vəkili iki ölkənin dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanmasının əhəmiyyətindən söz açıb. Dövlətimizin başçısının səfər zamanı mətbuata birgə bəyanatında səsləndirdiyi "Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq" sözlərini xatırladıb.

Günay Əfəndiyeva səfərin məhsuldar gündəliyini, qarşılıqlı iş birliyinin genişləndirilməsinə dair yekun nəticələrini yüksək dəyərləndirib: "Müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, investisiya, nəqliyyat, logistika, energetika, maliyyə, rəqəmsal təhlükəsizlik sahələrini əhatə edən çoxsaylı sənədlər mübadilə olundu. Artıq əlaqələrimiz regional səviyyədə inkişaf edəcək".

Deputat Qırğızıstanın türk dünyasının tarixi-mədəni irsində önəmli yerə sahib olduğunu vurğulayaraq qeyd edib: "Qırğızıstan türk xalqlarının qəhrəmanlıq ruhunu yaşadan "Manas"ın Vətənidir. Böyük yazıçı Çingiz Aytmatovu türk dünyasına və bütün bəşəriyyətə bəxş edən torpaqdır. Qırğızıstanın incisi İssık-Kul əsrlər boyu ümumtürk sivilizasiyasının qədim mərkəzlərindən biri olub".

Millət vəkili ölkəmizin müstəqillik illərində Qırğızıstanla əlaqələrindən söz açıb. O, Ümumilli Lider Heydər Əliyevin türk dünyasının ortaq gələcəyinə hesablanmış uzaqgörən siyasətini, yüksək fəaliyyətini xatırladaraq bildirib: "Ulu Öndər Heydər Əliyev 1995-ci ildə Bişkekə səfər edərək, "Manas" dastanının minillik yubiley mərasimində iştirak etmişdir. Tədbirdəki çıxışı zamanı Ulu Öndər hərzamankı zəngin, dərin məzmunlu nitqi ilə Azərbaycan-Qırğızıstan dostluğunun tarixi və mənəvi əsaslarına diqqət çəkmişdir".

Son illərdə iki dövlətin mədəni-humanitar əlaqələrinin möhkəmləndirilməsi yönündə əhəmiyyətli addımların atıldığını qeyd edən Günay Əfəndiyeva bildirib: "Ölkələrimizdə ənənəvi şəkildə təşkil olunan qarşılıqlı mədəniyyət günləri Azərbaycan və qırğız xalqları arasında mənəvi bağları daha da gücləndirir. Həmrəyliyimizin ən gözəl nümunələrindən biri Ağdamda Qırğızıstanın dəstəyi ilə məktəbin tikilməsidir. Bakıda Çingiz Aytmatovun abidəsi ucaldılıb, onun adını daşıyan park salınıb. Bişkekdə Azərbaycan-Qırğızıstan Dostluq Parkı yaradılıb.

Qırğızıstanda isə gözəl İssık-Kulun sahilində Azərbaycan tərəfindən inşa olunan və zəngin irsimizi əks etdirən "Bakı" hoteli fəaliyyətə başlayıb. Bütün bu təşəbbüslər Azərbaycan və qırğız xalqlarının bir-birinə daha da yaxınlaşmasına, ortaq dəyərlər ətrafında sıx birləşməsinə imkan yaradır.

Dövlətimizin başçısının Qırğızıstana səfəri zamanı Şuşa ilə Çolpon-Ata şəhərlərinin qardaşlıq münasibətlərinin yaradılmasına diqqət çəkən Günay Əfəndiyeva bildirib: "Çolpon-Ata İssık-Kulun sahilində yerləşir və türk dünyasının ən gözəl şəhərlərindəndir. Mən orada dəfələrlə olmuşam. Şəhərin evsahibliyi etdiyi türk dünyasını birləşdirən müxtəlif beynəlxalq miqyaslı tədbirlərdə, o cümlədən 2016-cı ildə II Dünya Köçəri Oyunlarında, 2018-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə Görüşündə, 2022-ci ildə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 11-ci plenar iclasında iştirak etmişəm. Şəhər təbii mənzərəsi, dağları, ab-havası ilə insanı heyran edir. Təsadüfi deyil ki, Cıdır düzü, İsa bulağı ilə, sıldırım qayaları, çəmənləri, meşələri ilə öz ziyarətçilərini valeh edən bizim gözəl Şuşamız Çolpon-Ata ilə qardaşlaşır. Hər iki şəhər həm öz təbiəti, həm də mədəni mühiti ilə seçilir.

Digər qədim tarixi şəhərlərimizin, o cümlədən Qəbələ ilə Karakolun, Gəncə ilə Oşun da qardaşlıq əlaqələri qurulur".

Deputat bildirib ki, Qırğızıstan Prezidenti Sadır Japarovun Prezident İlham Əliyevə təqdim etdiyi I dərəcəli "Manas" ordeni, eyni zamanda Azərbaycan Prezidentinin Sadır Japarovu "Heydər Əliyev" ordeni ilə təltif etməsi dövlətlərarası münasibətlərin yüksək səviyyəsinin siyasi ifadəsi kimi böyük əhəmiyyət daşıyır.

Günay Əfəndiyeva Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşünün keçirilməsinə diqqət çəkərək bildirib ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə dövlətimizin yürütdüyü ardıcıl və uzaqgörən xarici siyasət nəticəsində ölkəmiz ilə Mərkəzi Asiya arasında yeni strateji körpülər qurulub. Keçən il Özbəkistanın paytaxtı Daşkənddə Azərbaycanın ilk dəfə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakçı kimi təmsil olunması tarixi hadisə idi. "Mərkəzi Asiya + Azərbaycan" formatının artıq özünü doğrultduğunu görürük. Bu, yeni olsa da, çoxtərəfli əməkdaşlıq, həmçinin gələcək üçün böyük perspektivlər vəd edən bir platformadır.

"Bu baxımdan Azərbaycan-Qırğızıstan tərəfdaşlığı həm də regional inteqrasiyanın dərinləşməsinə mühüm töhfə verir", - deyə millət vəkili vurğulayıb.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan kinosunun fəlsəfi zirvəsi - "Nəsimi"







**Azərbaycan kino sənətinin konseptual baxımdan ən mürəkkəb əsərlərindən olan "Nəsimi" bədii filmi milli mədəniyyət tariximizdə, sadəcə, bioqrafik ekran əsəri deyil, bədii-fəlsəfi bir intibah hadisəsidir. Rejissor Həsən Seyidbəylinin quruluşu və yazıçı İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında ərsəyə gələn bu film SSRİ dövrünün hakim ateist və materialist ideologiyasının hökm sürdüyü bir mühitdə Şərqin ən radikal və humanist fəlsəfi cərəyanlarından biri olan hürufiliyi mərkəzə gətirməklə böyük bir elmi-mədəni cəsarət nümayiş etdirmişdir.**

1973-cü ildə çəkilən ekran əsəri XIV-XV əsrlər Şərqinin qanlı feodal ziddiyyətlərini, teokratik təqibləri və fərdi azadlıq ideyasının boğulduğu bir epoxanı təsvir etməklə bərabər, mahiyyətcə insanın ilahi qüdrətini, onun kainatın mərkəzində dayanan ən ali varlıq olduğunu bəyan edən konsepsiyanı bədii dilin vasitəsilə vizuallaşdırmışdır. Senzuranın ən sərt dönəmində İmadəddin Nəsiminin yaradıcılığındakı "Haqq mənəm" (Ənəl-həqq) çağırışını dini mühafizəkarlığa qarşı üsyan kimi təqdim edən film Azərbaycan xalqının milli mənlik şüurunun, tarixi köklərinə bağlılığının və müstəqil təfəkkürünün formalaşmasında mühüm rol oynamışdır. Bu mənada ekran əsəri, sadəcə, keçmişin gerçəkliyi deyil, həm də bəşəri azadlıq, ideya uğrunda fədakarlıq və mənəvi ucalığın sönməz ziyasıdır.

Ekran əsəri dahi şairin anadan olmasının 600 illik yubileyi münasibətilə lentə alınmış və Azərbaycan kino sənətinin ən parlaq incilərindən birinə çevrilmişdir.

## Çətin sınaqlar

Kinolent Xalq yazıçısı İsa Hüseynovun (Muğanna) "Məhşər" romanı əsasında müəllifin öz ssenarisi üzrə ekranlaşdırılmışdır. Film Ulu Öndər Heydər Əliyevin dəstəyi və təşəbbüsü sayəsində ərsəyə gəlmişdir. Çəkilişlər üçün xaricdən valyuta ilə "Kodak" kinolenti gətirilmiş və bu, Azərbaycan kinosunda həmin lentlə çəkilən ilk film olmuşdur. Tarixi həqiqətləri qorumaq məqsədilə çəkilişlərə görkəmli nəsimişünas alimlər, etnoqraflar və sənətşünaslar cəlb edilmişlər.

Filmdə Orta əsrlərin dini fanatizmi, feodal zülmü və işğalçı müharibələr fonunda insanın daxili azadlığı, ruhaniliyi və haqq uğrunda mübarizəsi işıqlandırılır. Hürufilik təriqətinin rəhbəri Fəzlullah Nəiminin edamından sonra onun ideyalarını davam etdirən Nəsimi "Ənəl-həqq" fəlsəfəsini yayır. Teymurləngin ordusunun Şirvana yürüşü, Şirvanşah İbrahimin diplomatik gedişləri və Nəsiminin Hələb şəhərində dərisinin soyularaq edam edilməsi filmin kulminasiya nöqtələrini təşkil edir. Şair ölüm ayağında belə öz əqidəsindən dönmür və insanın ilahi qüdrətini ucaldır.

Ekran əsərindəki aktyor ansamblı təkcə fərdi personajları canlandırmır, həm də dövrün böyük sivilizasiya və ideologiya toqquşmasını nümayiş etdirir. İsmayıl Osmanlının bənzərsiz ifasında təqdim olunan Fəzlullah Nəimi elmin, daxili nizamın və mistik idrakın müdrikliyini təcəssüm etdirir. Rasim Balayevin Nəsimisi isə bu elmin coşğun fədaisinə, qorxmaz carçısına çevrilən gənc və sarsılmaz iradənin rəmzidir. Onların qarşısında dayanan Şirvanşah İbrahim (Səməndər Rzayev) və Miranşah (Muxtar Maniyev) kimi tarixi simalar isə azad düşüncəni boğmağa çalışan, lakin öz daxili qorxularına və feodal hakimiyyət ambisiyalarına əsir düşən repressiv dairənin bədii təsviridir. Bu gərgin qarşıdurma kinoda dialoq dramaturgiyasının ən yüksək zirvələrindən birini yaratmışdır.

Tamaşaçıların böyük həyəcanla izlədiyi kulminasiya nöqtəsi olan edam səhnəsi kinomuzun ən ağır və dramatik çəkiliş proseslərindən biri hesab olunur. Nəsiminin diri-diri dərisinin soyulması səhnəsinin naturalizmi və bədii təsir gücü rejissor Həsən Seyidbəylinin qeyri-adi gedişləri və Rasim Balayevin yüksək psixoloji dözümlülüyü sayəsində əldə edilmişdir. Şairin edam edilərkən belə öz əqidəsindən dönməməsi, fiziki ağrılara məğrurluqla sinə gərməsi gerçək olaraq sənətdə ideyanın və haqqın ölüm üzərindəki mütləq qələbəsi kimi arxivləşmişdir.

Burada bir məqama xüsusi toxunulmalıdır. Film boyu Rasim Balayevin unudulmaz tembri ilə səslənən qəzəllər, sadəcə, bədii fon rolunu oynamır, hər biri süjetin fəlsəfi sütununu təşkil edir. Kino nəzəriyyəçilərinin yazdıqlarına görə, filmin ana xəttini təşkil edən "Məndə sığar iki cahan, mən bu cahana sığmazam..." qəzəli hürufiliyin "Vəhdəti-vücud" (varlığın birliyi) fəlsəfəsinin poetik çağırışıdır. Şair burada bəyan edir ki, insan fiziki olaraq bu maddi dünyaya sığsa da, onun mənəvi ruhu və şüuru iki cahanı (maddi və mənəvi dünyanı) əhatə edəcək qədər nəhayətsizdir. "Haqq mənəm" ifadəsi ilə birləşən bu fəlsəfə insanın daxilində ilahi bir zərrə daşıdığını və onun heç bir qul, kölə və ya feodal zülmünə baş əyməməli olan uca bir varlıq olduğunu vurğulayır.

"Məkanım yox fəlakanda, nə yerdə, nə asimanda..." qəzəli ilə Nəsiminin məkansızlıq və zamansızlıq fəlsəfəsi filmdə onun dərvişlik həyatı və səyahətləri zamanı ön plana çıxır, insanın coğrafi sərhədlərlə, dini qəliblərlə və dar qəfəslərlə məhdudlaşdırıla bilməyəcəyi göstərilir. Şair öz ruhunun və ideyalarının sərbəstliyini fələklərin və asimanın fövqündə görür.

"Gəl, ey dilbər ki, müştaqam, səni görmək dilər könlüm" qəzəli filmdə təsəvvüfdəki "ilahi eşq" anlayışına söykənir. Buradakı gözəllik və sevgili anlayışı dünyəvi ehtiraslardan uzaq mütləq həqiqətə - Yaradana və kamil insana duyulan mənəvi sevgini ifadə edir.

Ekran əsərinin fəlsəfi təsir gücünü zirvəyə qaldıran ən mühüm amillərdən biri də görkəmli bəstəkar Tofiq Quliyevin film üçün yazdığı monumental musiqidir. Lirik mahnıların ustadı kimi tanınan bəstəkar bu filmdə öz yaradıcılıq ampluasını tamamilə dəyişərək dərin, dramatik və fəlsəfi bir simfonizm ortaya qoymuşdur. Tofiq Quliyev musiqi ssenarisini hazırlayarkən Şərq mənəviyyatını və təsəvvüf fəlsəfəsini dərindən araşdırmış, xüsusilə Orta əsrlər hürufi dərvişlərinin zikr ritmlərini və qədim muğam melodiyalarını təhlil etmişdir. O, filmin musiqi strukturunu simfonik orkestrlə milli alətlərin (xüsusilə tar, kamança və ney) sintezi üzərində qurmuş, fərqli xor partiyalarından istifadə etmişdir. Bəstəkar hər bir personaj və hadisə üçün ayrıca musiqi leytmotivi yaratmışdı. Nəsiminin poetik monoloqlarını müşayiət edən həzin, lakin daxili bir üsyan çıxaran melodiyalar edam səhnəsində insanın mənəvi ucalığını tərənnüm edən əzəmətli, dramatik simfonik partituralarla əvəzlənirdi. Tofiq Quliyevin bu gərgin və titanik əməyi sayəsində musiqi filmdə, sadəcə, bədii fona çevrilmədi, Nəsimi fəlsəfəsinin ruhunu vizual kadrlardan əvvəl tamaşaçıya ötürən müstəqil bir obraz səviyyəsinə yüksəldi.

## Heydər Əliyevin siyasi iradəsi

Filmin ərsəyə gəlməsi təkcə yaradıcı heyətin deyil, həm də o dövrdə Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin böyük siyasi iradəsinin və milli təəssübkeşliyinin birbaşa nəticəsi idi. Məhz Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri sayəsində İmadəddin Nəsiminin 600 illik yubileyi 1973-cü ildə UNESCO səviyyəsində qeyd olunan ilk dahi azərbaycanlı mütəfəkkir kimi tarixə düşdü. Moskvadakı mərkəzi sovet senzurasının islam təsəvvürünə və mistik fəlsəfəyə aid olan belə bir mövzuya icazə verməsi qeyri-mümkün görünsə də, Heydər Əliyev böyük diplomatik gedişlərlə filmin çəkilişlərinə rəsmi yaşıl işıq yandırdı. Onun göstərdiyi mühüm təşkilati və dövlət dəstəyinin təfərrüatları kino tariximiz üçün misilsizdir.

Əvvəla xüsusi texniki təminat yüksək səviyyədə həyata keçirildi. Heydər Əliyevin tapşırığı ilə dövrün ən aparıcı nəsimişünas alimləri, tarixçiləri və dilçiləri filmin ssenari mərhələsindən çəkilişinə qədər məsləhətçi kimi cəlb olundu. Naxçıvandakı tarixi Əlincə qalası, Şirvanşahlar Sarayı və Suraxanı Atəşgahında aparılan çəkilişlər zamanı dövlət qurumları, o cümlədən kütləvi səhnələr üçün atlı dəstələr və hərbi qüvvələr birbaşa rejissorun ixtiyarına verildi. Moskva rəsmilərinin filmdəki dini-panteist motivləri "ideoloji zərərli" hesab edib qadağan etmək cəhdlərinin qarşısı məhz Ulu Öndərin sovet rəhbərliyi qarşısındakı şəxsi nüfuzu və filmi himayə etməsi sayəsində alındı.

"Nəsimi" filmi Azərbaycan kinosunda tarixi-fəlsəfi bioqrafiya janrının mükəmməl fundamentini qoymaqla bərabər, böyük ittifaq miqyasında da ciddi uğurlara imza atdı. Ekran əsəri 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq kinofestivalında "Tarixi mövzuda ən yaxşı film" mükafatına layiq görüldü. Eyni zamanda gənc Rasim Balayev ilk rolu ilə "Ən yaxşı kişi rolu" mükafatını qazanaraq adını sovet kinosunun tarixinə yazdı.

Film bu gün də öz möhtəşəm kütləvi səhnələri, Tofiq Quliyevin unudulmaz musiqisi və fəlsəfi dialoqları ilə Azərbaycan kino sənətinin zirvələrindən hesab olunur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 43 ilə sığan böyük ömür

**O, Şahtaxtlılar nəslinin ikinci İsa Sultanı idi. Atası Nəcəfqulu ağanın istəyincə ata babasının adını daşıyırdı. Şahtaxtlılar nəslində hərbçilər çox olub. İsa Sultanın adını yaşatdığı babası, atası Nəcəfqulu ağa, əmisi Hacı Vəli ağa, qardaşı Əbülfət ağa da hərbçi idilər. Babası İsa Sultan əvvəl İran ordusunda, sonralar çar Rusiyasında hərbçi olub. Qardaşı Əbülfət ağa Şahtaxtinski isə çar ordusunun polkovniki rütbəsinə yüksəlib, rus-yapon müharibəsində iştirak edib.**

Nəcəfqulu ağa Şahtaxtinski ata yurdu Şahtaxtı kəndində doğulub boya-başa çatıb. Çar Rusiyasının hərbçilərindən olub. Şahtaxtıda, Naxçıvan və İrəvan şəhərlərində mülklərin, Naxçıvan mahalının kəndlərində torpaq sahələrinin sahibiydi. Nəcəfqulu ağa vəzifəsinə görə Naxçıvanda və İrəvanda yaşayıb. Oğlu İsa Sultan da 1851-ci ildə İrəvanda dünyaya gəlib.

Zəngin, ziyalı ailənin övladı kimi həm qayğısını çəkiblər, bolluq, firavanlıq içində böyüdüblər, həm də təhsilə yönəldiblər. İsa Sultan ilk təhsilini evdə alıb. Sonra İrəvan şəhərində kişi gimnaziyasında oxuyub. 14 yaşı olanda atası Nəcəfqulu ağa onu Tiflisə aparıb. İsa Sultan çar imperiyasının elm mərkəzlərindən sayılan bu şəhərdə gürcü maarifçisi Dmitri Kipianinin pansionunda oxuyub. 1867-ci ildə Tiflisdə yeni açılmış Realnı Gimnaziyaya daxil olub. Araşdırmaçılar bildirirlər ki, İsa Sultan həmin gimnaziyada tələbələr arasında yeganə azərbaycanlı idi. Dərslərinə həvəslə, məsuliyyətlə yanaşması, istedadı onu fərqləndirirdi, müəllimləri onun haqqında yalnız xoş sözlər söyləyirdilər.

Tiflis Realnı Gimnaziyasını 1871-ci ildə bitirdikdən sonra Peterburqa gedən İsa Sultan Əkinçilik İnstitutunda təhsilini davam etdirib. Tədqiqatçılar bildirirlər ki, İsa Sultan Şahtaxtinski Peterburqda qafqazlı tələbələrdən ibarət olan "Qafqazlılar dərnəyi"nin fəal üzvü olub. Jandarm İdarəsi dərnəyin fəaliyyətindən çox narahat olduğuna görə çar II Aleksandrı bu barədə məlumatlandırıb. 1874-cü ildə II Aleksandr tapşırıq verib ki, gizli polis tərəfindən İsa Sultan başda olmaqla, dərnəyin bütün üzvlərinə xüsusi nəzarət edilsin.

İ.Şahtaxtinski 1874-cü ildə Peterburqda təhsilini tamamlayır. Oxumaq, öyrənmək marağı onu daha da uzaqlara aparır. Paris, London və Sürix institutlarının azad dinləyicisi olur. Getdiyi ölkələr, aldığı təhsil İsa Sultanın dünyagörüşünü, həyata baxışını formalaşdırır. Ərəb, fars, rus, alman, fransız, yunan, latın və ingilis dillərini mükəmməl bilməsi onun qarşısında yeni imkanlar açır.



*İsa Sultan Şahtaxtinski (sağda) qardaşları ilə birlikdə*

1876-cı ildə Tiflisə dönür. Düşüncələrini qələmə almaq marağı onu jurnalistikaya gətirir. "Tiflisski vestnik" qəzetində çalışmağa başlayır. 25 yaşlı İsa Sultan yazılarını dərc etdirdiyi bu qəzetə həm də maddi yardım göstərir. Qısa müddətdə o, "Tiflisski vestnik"in ən fəal yazarlarından biri kimi tanınır. Siyasi mövzuda yazan İsa Sultan bir müddət sonra həmin mətbu orqanın siyasi şöbəsinin müdiri olur. Fəaliyyəti Tiflis Senzura Komitəsinin diqqətindən kənarda qalmır. Nahaq tənqidlərə, hətta təhqirlərə məruz qalması da bu səbəbdən idi.

Təqiblərə rəğmən 1877-ci il martın 11-də "Kavkazski almanax"ın nəşrinə rəsmi icazə ala bilir. İsa Sultan həmin almanaxın təsisçisi, naşiri və redaktoru olur. Yazılarında doğma xalqının mənafeyini müdafiə edən İsa Sultan Şahtaxtinskinin "Kavkazski almanax"da fəaliyyətinə də çar xəfiyyələri ciddi maneələr yaradırlar.

1877-ci ilin aprelində Rusiya-Türkiyə müharibəsi başlayır. Həmin ilin oktyabrında rus ordusu Qarsı işğal edir. Müharibə vaxtı çar Rusiyasının rus və türk dillərini bilən dövlət məmurlarına böyük ehtiyacı yaranır. Həmin vaxt səfərbərliyə alınanlardan biri də İsa Sultan Şahtaxtinski olur. 1877-ci ilin sonlarında o, Qarsa göndərilir. Çar hökuməti 1878-ci il yanvarın 1-də İsa Sultanı Qars vilayəti rəisi yanında xüsusi tapşırıqlar üzrə məmur vəzifəsinə təyin edir. O, 1879-cu il yanvarın 1-dən etibarən bu sahədə baş məmur təyin olunur. 1879-cu ilin dekabrında Rusiya ilə Osmanlı imperiyası arasında gedən danışıqlarda bəzi məsələləri nizama salmaq üçün İstanbul şəhərində 3 ay ezamiyyətə göndərilir. 1880-ci ildə Ərzuruma gedir. 1883-cü ilin aprelində o, Qars vilayəti hərbi qubernatorunun dəftərxana rəisi təyin edilir.

Çar imperiyası ilə Osmanlı dövləti arasında münasibətlərin nizama salınmasında göstərdiyi diplomatik fəaliyyətinə görə Türkiyə hökuməti tərəfindən üçüncü dərəcəli "Məcidiyyə" ordeni ilə təltif olunur. Rusiya hökuməti də onu bir çox ordenə layiq görür. İran dövləti isə diplomatik fəaliyyətinə görə, İsa Sultanı "Şiri-Xurşid" ("Şir və Günəş") ordeni ilə mükafatlandırır.

İsa Sultan Şahtaxtinski təbiətşünas alim idi. Ona çoxsəhifəlik elmi dissertasiyaya görə kənd təsərrüfatı və meşəçilik namizədi elmi dərəcəsi verilmişdi. O, Qarsda da ədəbi, elmi fəaliyyətini davam etdirmiş, orada rus dilində "Qars" qəzetini buraxmışdı.

İsa Sultan Şahtaxtinski 1885-ci ildə Tiflisdə yaşayan və istefada olan kapitan Allahyar Ağalarovun qızı Səkinə xanımla ailə qurmuş, bu evlilikdən 6 qızı dünyaya gəlmişdir. Səkinə xanım Şahtaxtinskaya da Azərbaycanın ziyalı qadınlarından idi. O, yaxın rəfiqəsi Həmidə xanımla birlikdə Tiflisdə Qadın Xeyriyyə Cəmiyyəti yaratmış, müsəlman qadınlarının maariflənməsində fəal iştirak etmişdi.

Qarsın sərt dağ iqlimi səhhətinə mənfi təsir göstərsə də, çar hökuməti onun işdən ayrılıb müalicəyə getməsinə icazə verməyib. Amma ağır xəstə olan İsa Sultanı həyat yoldaşı Səkinə xanım Tiflisə gətirir. Jurnalist, publisist, təbiətşünas alim, ictimai xadim İsa Sultan Şahtaxtinski 1894-cü il oktyabrın 17-də 43 yaşında Tiflisdə vəfat edir. Şəhərin müsəlman qəbiristanlığında torpağa tapşırılır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Süni intellekt dövründə dünyadakı rəqəmsal fərq

**Süni intellekt texnologiyaları qlobal iqtisadiyyatı sürətlə dəyişdirir. Lakin bu texnoloji yenilənmə dünya üzrə bərabər paylanmır və mövcud sosial-iqtisadi bərabərsizlikləri daha da dərinləşdirmək riski daşıyır.**



Beynəlxalq Əmək Təşkilatının məlumatlarına əsasən, dünyada çalışan əhalinin təxminən 60 faizi, yəni 2 milyarddan çox insan qeyri-rəsmi iqtisadiyyatda (sürücü, kuryer və s.) fəaliyyət göstərir. İnkişaf etməkdə olan ölkələrdə bu göstərici 80 faizi ötür. Qlobal səviyyədə süni intellektin tətbiqi və istifadəsi regionlar üzrə fərqlənir. "Microsoft" şirkətinin "Süni İntellektin Yayılması Hesabatı"nın göstəriciləri bu qlobal mənzərəni açıq şəkildə nümayiş etdirir. Belə ki, Şimali Amerikada süni intellektin tətbiqi 26,4 faiz, Avropada 25,5 faiz, Okeaniyada 17,7 faiz, Asiyada 16,6 faiz, Cənubi Amerikada 13,8 faiz, Afrikada isə 9,1 faiz təşkil edir. İnkişaf etmiş regionlarda süni intellekt əsasən formal sektorun, texnologiya və xidmət sahələrinin məhsuldarlığını artırır. İnkişaf etməkdə olan ölkələrdə isə əhalinin böyük hissəsi qeyri-rəsmi iqtisadiyyatda çalışdığı üçün bu üstünlüklərdən kənarda qalır.

Süni intellektin qeyri-rəsmi sektora təsiri dünyanın müxtəlif bölgələrində fərqli formalarda özünü göstərir. Latın Amerikasında məşğulluğun yarısından çoxu qeyri-rəsmidir. Braziliya ilə Meksika kimi ölkələrdə isə süni intellekt daha çox e-ticarət və rəqəmsal ödəniş sistemləri vasitəsilə kiçik sahibkarlara inteqrasiya olunur. Cənubi və Cənub-Şərqi Asiyada, xüsusilə Hindistan, İndoneziya və Vyetnamda qeyri-rəsmi məşğulluq 70-80 faiz təşkil edir. Hindistanda isə rəqəmsal dövlət infrastrukturu süni intellekt alətləri ilə birləşərək milyonlarla qeyri-rəsmi işçini rəqəmsal maliyyə sisteminə cəlb edir. Avropa və Şimali Amerikada bu sektor kiçik olsa da, rəqəmsal platformalarda çalışan sərbəst işçilərin (kuryerlər, sərbəst proqramçılar, taksi sürücüləri) sayı sürətlə artır. "Platforma iqtisadiyyatı" (Uber, Wolt, Bolt, Yango, Amazon və s.) çərçivəsində süni intellekt bu sahələrdə iş bölüşdürülməsini, sifarişlərin marşrutlaşdırılmasını, eləcə də dinamik qiymətləndirməni idarə edir.

Dünya üzrə əsas regionlarda formal və qeyri-rəsmi məşğulluğun təxmini nisbəti müxtəlifdir. İnkişaf etmiş ölkələrdə rəsmi məşğulluq 85-90 faiz, qeyri-rəsmi məşğulluq isə 10-15 faiz təşkil edir. Cənubi Asiyada rəsmi məşğulluq 12-15 faiz, qeyri-rəsmi məşğulluq 85-88 faiz arasındadır. Səhraaltı Afrikada rəsmi məşğulluq 15-19 faiz, qeyri-rəsmi məşğulluq 81-85 faiz təşkil etdiyi halda, Latın Amerikasında rəsmi məşğulluq 45-50 faiz, qeyri-rəsmi məşğulluq isə 50-55 faiz civarındadır. Qlobal qeyri-rəsmi iqtisadiyyatda çalışanların böyük hissəsi kənd təsərrüfatı, pərakəndə ticarət, tikinti və nəqliyyat kimi sahələrdə cəmləşib. Şəhərləşmənin sürətlənməsi ilə pərakəndə ticarət və xidmət sektorundakı qeyri-rəsmi işçilərin sayı hər il daha da artır, bu isə texnoloji həllərin məhz bu sahələrə uyğunlaşdırılmasını zəruri edir.

Bundan əlavə, süni intellektin yaratdığı imkanlardan qlobal qeyri-rəsmi iqtisadiyyatın da yararlanması üçün hədəfli addımlar atılmalıdır. İlk növbədə, dünyada savadlılıq səviyyəsi aşağı olan və ya yalnız yerli dillərdə danışan işçilər üçün çoxdilli, səsli və vizual süni intellekt tətbiqləri hazırlanmalıdır. Eyni zamanda internetə çıxışı zəif olan ölkələrdə süni intellekt alətlərinin yerli cihazlarda onlayn rejimdə işləməsi təmin olunmalıdır. Mikro-maliyyə və kredit diaqnostikası sahəsində süni intellekt vasitəsilə qeyri-rəsmi çalışan kiçik sahibkarların rəqəmsal izləri təhlil edilməli və onlar üçün bank kreditlərinə çıxış asanlaşdırılmalıdır. Beynəlxalq rəqəmsal infrastruktur istiqamətində isə qlobal ticarətdə transsərhəd rəqəmsal ödənişlər və data mübadiləsi sadələşdirilməlidir. Beləliklə, dünyada rəqəmsal fərqin dərinləşməməsi üçün süni intellekt strategiyaları 2 milyard qeyri-rəsmi çalışan insanı da əhatə etməlidir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Tarixi Zəfərdən mütləq sülhə
Vaşinqton Zirvəsində regional sabitliyin, əməkdaşlığın və tərəqqinin təməli qoyuldu
Azərbaycanın yeni dövlət davranış modeli: müdafiə diplomatiyasından strateji təşəbbüskarlığa
Türk birliyi: tarixi yaddaşdan yeni geosiyasi gücə doğru
ATƏT-in Minsk qrupunun ləğvi - tarixi zərurətdən yeni reallığa
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Paytaxtda axşam konsertləri keçirilir

**Bakı Şəhər İcra Hakimiyyətinin və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə paytaxt sakinlərinin asudə vaxtının daha səmərəli təşkili məqsədilə açıq hava konsertlərinə start verilib. Şənbə günündən etibarən Bakı şəhərinin dörd rayonunda yerləşən park və istirahət məkanları musiqi dolu axşamlara evsahibliyi edib.**





Konsert proqramları Xətai rayonundakı "Nizami Gəncəvi" parkında, Nərimanov rayonunda "Gənclik" metrostansiyasının yaxınlığındakı parkın amfiteatrında, Yasamal rayonunun Meşə parkında və Nizami rayonundakı Heydər Əliyev və digər parklarda keçirilib.

Sözügedən parklar paytaxt sakinlərinin ən çox üz tutduğu istirahət məkanlarıdır. Bu ərazilərdə insanların asudə vaxtlarını rahat və mənalı keçirməsi üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqları, istirahət guşələri və uşaq əyləncə meydançaları hər yaşdan olan ziyarətçiləri özünə cəlb edir. Gün ərzində uşaqlar bu məkanlarda oynayır, ailələr piknik edir, gənclər və yaşlı nəslin nümayəndələri isə təmiz hava və sakit mühitdən zövq alaraq dincəlirlər. Bu parklar minlərlə sakinin sevimli görüş və istirahət ünvanına çevrilib.

Peşəkar və gənc ifaçıların bir araya gəldiyi konsertlərdə estrada, xalq və klassik musiqi nümunələri, eləcə də müxtəlif instrumental ifalar səsləndirilib. Rəngarəng repertuar, canlı ifalar və xoş atmosfer parklara istirahət üçün üz tutan sakinlərə unudulmaz axşam yaşadıb.

İfaçıların çıxışları tamaşaçılar tərəfindən maraq və alqışlarla qarşılanıb. Yay axşamlarına xüsusi rəng qatan bu musiqi proqramlarının repertuarı hər həftə yenilənəcək.

Konsertlərin yay mövsümü boyunca hər şənbə günü davam etdirilməsi nəzərdə tutulub.

*T.VERDİYEVA,*
*"Azərbaycan"*

## BEYNƏLXALQ HƏYAT

# Çində fırtına səbəbindən 1 milyondan çox insan təxliyə edilib

**Asiya mediasının bazar ertəsi verdiyi məlumata görə, Çinin şərqinə çatan güclü "Dolfin" fırtınası 1 milyondan çox insanın təxliyəsinə səbəb olub. Evlərini tərk etməyə məcbur olan ən çox sakin Çjetszyan əyalətinin Vençjou şəhərindəndir.**



Bazar ertəsi səhər "Dolfin" zəifləyib və əvvəllər tayfun kimi təsnif edilsə də, tropik fırtına səviyyəsinə endirilib. Bazar günü Çinə çatanda küləyin sürəti saatda 150 km-ə çatıbmış.

Bu arada yerli hakimiyyət orqanları "narıncı" hava xəbərdarlığını qüvvədə saxlayıb və çərşənbə gününə qədər daşqınlara səbəb ola biləcək güclü yağış barədə xəbərdarlıq edib. Çin Meteorologiya Xidmətinin məlumatına görə, yaxın günlər bəzi ərazilərdə 400 mm-ə qədər yağış yağa bilər.

Şiddətli hava şəraitinin Çinin nəqliyyat sisteminə, o cümlədən qatar stansiyalarına və hava limanlarına təsir etdiyi bildirilir.

# Kosta rikalı diplomat BMT-nin baş katibi postu uğrunda mübarizədə favoritdir

## Rebekka Qrinspan təşkilata rəhbərlik edən ilk qadın ola bilər

**Kosta rikalı diplomat Rebekka Qrinspan BMT-nin baş katibi postuna əsas namizədlərdən birinə çevrilib. O, təşkilata rəhbərlik edən ilk qadın ola bilər. Bu barədə "The Guardian" qəzeti xəbər verir.**



BMT Təhlükəsizlik Şurasında keçirilən qeyri-rəsmi sorğu zamanı Qrinspanın lehinə 10 səs verilib, daha 4 nümayəndə qərarsız olduğunu bildirib, biri isə onun namizədliyinə qarşı çıxıb.

R.Qrinspan hazırda BMT-nin Ticarət və İnkişaf Konfransına (UNCTAD) rəhbərlik edir. O, əvvəllər Kosta Rikanın vitse-prezidenti vəzifəsində çalışıb və müxtəlif beynəlxalq vəzifələr tutub. BMT-nin növbəti baş katibinin Latın Amerikasından olacağı gözlənildiyi üçün onun namizədliyi daha çox perspektivli hesab edilir. Rebekka Qrinspan iqtisadiyyat üzrə ixtisaslaşmışdır. Məsələn, onun rəhbərliyi altında UNCTAD İsrailin Fələstin ərazilərini işğalının iqtisadi nəticələrinə dair hesabatlar dərc edib.

İsrailin mignews.com saytı xəbər verir ki, Qrinspanın valideynləri yəhudidir. Onlar Holokostdan sağ çıxmış, sonra Kosta Rikada məskunlaşmışlar.

Yeni baş katibin son seçimini Təhlükəsizlik Şurası və BMT Baş Assambleyası edəcək.

BMT-nin hazırkı Baş katibi Antonio Quterreş 2026-cı ilin sonunda vəzifəsini tərk etməlidir.

*Hazırladı: Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bəzi yerlərdə yağış yağacaq

**Azərbaycanda avqustun bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 28-33° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların güclənəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26°, gündüz 32-36° isti, dağlarda gecə 14-19°, gündüz 21-26° isti olacağı bildirilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi "Azərenerji" sədrinin ümumi məsələlər üzrə müşaviri Vüqar Əliyevə bacısı

**MƏLAHƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" PHŞ-nin kollektivi İdarə Heyətinin sədri Elbrus Paşayevə qardaşı

**MƏMMƏDRAHİM PAŞAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1971-ci, 1974-cü, 1978-ci və 1980-ci il buraxılış 10-cu sinif məzunları sinif yoldaşları Sabir, Ədalət və İlqar Hacıyevlərə qardaşları

**LƏTİF HAFİZ OĞLU HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Bakı Media Mərkəzinin icraçı direktoru Orman Əliyevə atası, Əməkdar İncəsənət xadimi

**ÇİNGİZ ƏLİOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Regional Su Meliorasiya Xidməti" PHŞ-nin rəhbərliyi və kollektivi xidmətin əməkdaşı Rəsul Paşayevə, "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" PHŞ-nin İdarə Heyətinin sədri Elbrus Paşayevə qardaşları

**MƏMMƏDRAHİM PAŞA OĞLU PAŞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəhbərliyi və kollektivi "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" PHŞ-nin İdarə Heyətinin sədri Elbrus Paşayevə qardaşı

**MƏMMƏDRAHİM PAŞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3278
Sifariş 1031

Qiyməti 60 qəpik